## Ali Məclis buraxıla bilər

Naxçıvanda siyasi sistem dəyişir




**Milli Məclisin dünən keçirilən iclasında "Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Konstitusiya qanununun layihəsi müzakirəyə çıxarılıb.**

Konstitusiya qanunu layihəsində Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına 2 yeni maddənin (maddə 3-1 və maddə 28-1) əlavə edilməsi, 1 maddənin (maddə 5) çıxarılması, bir sıra maddələrdə və Preambula hissədə isə dəyişikliklər edilməsi nəzərdə tutulub.

(səh.2)



## Sabirabadda ana doğuş zamanı ölüb

Yeni doğulan uşaq isə sağ qalıb

**Sabirabadda ana doğuş zamanı ölüb.**

Mil-Muğan bürosunun məlumatına görə, İmişli rayonunun Yalavac kənd sakini, 1992-ci il təvəllüdlü Kərimova Şəbnəm Vaqif qızı Sabirabad doğum evində doğuş zamanı ölüb. (apa)

Yeni doğulan uşaq isə sağ qalıb.

№ 117 (6358) 2025-ci il

Qiymətİ 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 9 iyul 2025-ci il (çərşənbə)



## Koksaki virusu kabus kimi geri döndü

Parkdan evə gəlir, boğaz ağrısı ilə başlayır, ürəyə zərbə vurur

**Yay mövsümündə uşaqların müxtəlif viruslara yoluxmaq, bioloji çirklənməyə məruz qalmaq təhlükəsi daha da artır. Təhlükəyə diqqət çəkən pediatr Vaqif Qarayev açıq su hövzələrinin, çimərlik, əyləncə məkanlarının risk daşıdığını deyib.**

- Uşaqlar arasında əl-ayaq-ağız xəstəliyi yayılıb. Səbəbi əsasən Koksaki virusudur. Yoluxma həm virusla çirklənmiş əşyalarla kontaktdan, həm də hava-damcı yolu ilə baş verir. Kifayət qədər sürətlə yayılır xəstəlik. Yüksək temperatur fonunda əldə, ayaqda spesifik səpkilər, ağız boşluğunda isə içi maye ilə dolu səpkilər müşahidə olunur.

(səh.3)



## Texas ştatında faciə...

Prezident İlham Əliyev Donald Trampa başsağlığı verib

**Prezident İlham Əliyev Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampa başsağlığı verib.**

Başsağlığında deyilir:

"Hörmətli cənab Prezident,

Texas ştatında baş vermiş güclü daşqınlar nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər bizi son dərəcə sarsıtdı.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Amerika xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, xəsarət alanlara şəfa diləyirəm".



## Azərbaycan Pezeşkianı irqçilərə yem etməyəcək

Nəsib Nəsibli: "Biz ona Tanrıdan səbir və tədbirli olmağı arzulamalıyıq"

**İran Prezidenti Məsud Pezeşkianın Azərbaycana səfəri, Prezident İlham Əliyevlə Xankəndidə görüşməsi region ölkələrinin mediasında ciddi əks-səda doğurdu. Xüsusilə Pezeşkianın Azərbaycan və Türkiyə liderləri ilə birgə görüntüsü, səmimi dialoqları İran və Ermənistanda bəzi media qurumlarının tənqid hədəfinə çevrildi.**

Erməni lobbisinin təsiri altında olan İrandakı dairələr Pezeşkianın hərəkətini hətta "siyasi xəyanət" kimi təqdim etdilər. Tənqidlərin hədəfində Pezeşkianın Azərbaycanla yaxınlaşması, Ermənistanla münasibətlərin gələcəyi və İranın Qarabağ məsələsindəki ənənəvi mövqeyindən vaz keçməsi dayanır.

(səh.3)

# "Qardaşım erməni gülləsinə tuş gəldi"

Ruben Vardanyanın məhkəməsində Şuşa, Xocalı, Ağdam, Kəlbəcər faciələri səsləndi



**Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi iyulun 8-də davam etdirilib.**

"Şərq" xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) təqsirləndirilən şəxs bildiyi dildə, yəni, rus dilində tərcüməçi, habelə müdafiəsi üçün özünün seçdiyi vəkillə təmin olunub.

Hakim Zeynal Ağayev dindirmədən əvvəl məhkəmə prosesində ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə və zərərçəkmiş şəxslərin hüquqi varislərinə qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Sonra Zeynal Ağayev bildirib ki, təqsirləndirilən Ruben Vardanyanın ötən iclasda verdiyi vəsatətlə bağlı cinayət işinin materialları nəzərdən keçirilib. Qeyd edib ki, məhkəmə onun və müdafiəçisinin verdiyi bütün vəsatətləri qiymətləndirib.

Ardınca Ruben Vardanyan məhkəməyə müraciət edib. Bildirib ki, daha əvvəl məhkəmə kollegiyası iclas protokolları ilə tanış olmaq üçün ona və müdafiəçisinə şərait yaradıb. Hazırda isə məhkəmə hazırlıq iclasında qəbul edilmiş və protokollarda öz əksini tapmış qərarlarla tanış olmaq istəyirlər.

(səh.4)



## İşığın yükü xalqın çiynindədir

Sabit tarif effektiv deyil - sistem dəyişməlidir

**Azərbaycanda qaz və elektriklə bağlı aylıq sabit tariflər 1 manatı aşmayacaq. Bu barədə "Qaz təchizatı haqqında" yeni qanun layihəsi və "Elektroenergetika haqqında" qanuna təklif edilən dəyişikliyin Milli Məclisdə müzakirəsi zamanı energetika nazirinin müavini Orxan Zeynallı deyib.**

Nazir müavini qeyd edib ki, sabit tarifin tətbiqində əsas məqsəd xidmətin keyfiyyətinin artırılması, xərclərin istehlakçılar arasında daha ədalətli bölünməsidir.

(səh.5)




# Top Ermənistandadır

İran geri çəkilir, İrəvan Zəngəzur qərarını verməlidir

Zəngəzur dəhlizi təkcə Azərbaycan üçün deyil, bütün region üçün yeni imkanlar gətirəcək. Bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycana səfərindən sonra jurnalistlərə müsahibəsində deyib. Ərdoğan qeyd edib ki, Türkiyə bu dəhlizi təkcə geosiyasi deyil, həm də geoiqtisadi inqilabın tərkib hissəsi kimi görür...

(səh.4)

## Göydə azadlıq, yerdə faciə

Beşbarmaq faciəsi ekstrem idmanlara baxışımızı dəyişdirməlidir



**Təhlükəli idman növlərindən biri olan paraşütlə tullanma son illər Azərbaycanda da maraq doğuran ekstremal fəaliyyətlərdən biri halına gəlib.**

Lakin bu fəaliyyət düzgün icra edilmədikdə və təhlükəsizlik qaydalarına əməl olunmadıqda ölümlə nəticələnə bilən ağır qəzalara səbəb ola bilər. Siyəzən rayonunda Beşbarmaq dağında bir qadının qayaya çırpılaraq həyatını itirməsi bu riskləri bir daha gündəmə gətirib.

*Qeyd edək ki, qayaya çırpılaaq dünyasını dəyişən Nuranə Məcidova paraşütlə tək uçuş edib. Solo uçuş edən qadının paraşütü özünə məxsus olub.*

(səh.4)




# Ali Məclis buraxıla bilər

## Naxçıvanda siyasi sistem dəyişir

**Milli Məclisin dünən keçirilən iclasında "Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Konstitusiya qanununun layihəsi müzakirəyə çıxarılıb.**

APA-nın xəbərinə görə, Konstitusiya qanunu layihəsində Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına 2 yeni maddənin (maddə 3-1 və maddə 28-1) əlavə edilməsi, 1 maddənin (maddə 5) çıxarılması, bir sıra maddələrdə və Preambula hissədə isə dəyişikliklər edilməsi nəzərdə tutulub.

Layihəyə əsasən, Azərbaycan Respublikası Konstitusiyasının 134-cü maddəsinin III hissəsində qeyd olunan Naxçıvan Muxtar Respublikasının Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olmağı ilə bağlı müddəa Naxçıvan Muxtar Respublikası Konstitusiyasının Preambulasında da əksini tapacaq.

Konstitusiyaya əlavə edilməsi nəzərdə tutulan "Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi" adlı 3-1-ci maddəyə əsasən, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi Naxçıvan Muxtar Respublikasının ərazisində Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi vəzifələri yerinə yetirən icra orqanıdır və ona rəhbərliyi Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən və birbaşa Azərbaycan Respublikasının Prezidentinə tabe olan Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi həyata keçirir.

Layihədə əlavə edilməsi nəzərdə tutulan digər maddə "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin buraxılması" adlı 28-1-ci maddədir. Bu maddədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 31 deputatın tələbi ilə və ya Konstitusiyanın müvafiq maddələrində göstərilən vəzifələrini aradan qaldırıla bilməyən səbəblər üzündən icra edə bilmədikdə Azərbaycan Respublikasının Prezidenti tərəfindən buraxılması qeyd olunur.

Konstitusiya Qanunu layihəsində nəzərdə tutulan dəyişikliklərdən biri "Naxçıvan Muxtar Respublikasının ali vəzifəli şəxsi" adlı 5-ci maddənin çıxarılmasıdır.

Layihəyə əsasən, Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkiləri Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin təklifləri əsasında Azərbaycan Respublikası Prezidenti təyin edəcək (maddə 13, hissə II).

Bundan başqa, layihədə Azərbaycan Respublikası Prezidentinin və ya Azərbaycan Respublikası Milli Məclisinin təklifi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasının qapalı iclasının keçirilə bilməsi nəzərdə tutulur (maddə 18, hissə IV).

Konstitusiya Qanunu layihəsinə əsasən, Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər və Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının statusuna dair qanunlar 31 səs çoxluğu ilə, qalan məsələlərə dair qanunlar isə 23 səs çoxluğu ilə qəbul ediləcək (maddə 24, hissə II).

Layihəyə uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçilmək üçün Naxçıvan Muxtar Respublikasının ərazisində beş ildən az olmayaraq daimi yaşamaq tələbi aradan qaldırılacaq (maddə 29, hissə II).

Nəzərdə tutulan digər dəyişiklik Naxçıvan Muxtar Respublikasında yerli icra hakimiyyətləri başçılarının Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin təqdimatı əsasında Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin edilməsidir (maddə 32.4-1).

Konstitusiya Qanunu layihəsinə əsasən, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə tabe olmayacaq və iş qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla müəyyənləşdirəcək.(apa)

Layihədə, həmçinin, "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununa uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinin aktlarının artıq qərar deyil, sərəncam adlandırılması nəzərdə tutulub (maddə 33).

Layihəyə əsasən, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına dəyişikliklər və əlavələr haqqında Konstitusiya qanunları yox, qanunlar qəbul ediləcək (maddə 50).Layihədə, həmçinin, Azərbaycan Respublikasının Konstitusiyasına uyğunlaşdırma, dəqiqləşdirmə və texniki xarakterli bir sıra dəyişikliklər nəzərdə tutulub.

# Xankəndidə ECO zirvəsi

## Azərbaycanın suverenliyi və yaşıl enerji liderliyi dünyaya nümayiş olundu




**"Azərbaycanın "yaşıl enerji" sahəsində təcrübəsini İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) üzv ölkələri ilə bölüşməsi yüksək nəticələr verir".**

Bunu Milli Məclisin deputatı Tahir Mirkişili parlamentin növbədənkənar sessiyasının dünənki plenar iclasında bildirib. Onun sözlərinə görə, ECO regionun ən nüfuzlu iqtisadi təşkilatıdır: "570 milyon əhali, 2,6 trilyon ABŞ dollarlıq iqtisadi gücə malik olan təşkilat üzvləri xüsusilə də Şərq və Qərb arasında iqtisadi əlaqələrdə mühüm gücə və potensiala sahibdirlər. Azərbaycan artıq üçüncü dəfə idi ki, ECO sammitini təşkil edirdi. Lakin bu dəfə bu tədbir xüsusi əhəmiyyət kəsb edirdi, çünki o, Qarabağda keçirilirdi. Xankəndi ilə bağlı bu seçim çoxqatlı simvolik anlam daşıyırdı. Uzun münaqişədən sonra Xankəndidə ilk dəfə beynəlxalq zirvə keçirilirdi. Bu, ölkəmizin suverenliyinin möhkəmlənməsi ilə yanaşı, Azərbaycan Prezidentinin Qarabağdakı sülh və yenidənqurma səylərini beynəlxalq aləmə nümayiş etdirirdi. Tədbir həm də müharibədən sonrakı sülh prosesində Azərbaycan diplomatiyasının nüfuzunun gücləndirilməsinə böyük töhfə olub".

O qeyd edib ki, "yaşıl enerji"yə keçid kimi çətin prosesdə hər kəsdən öndə olan Azərbaycanın öz təcrübəsini üzv ölkələrlə bölüşmək istəyi yüksək nəticələr verir: "Şimalda və Cənubda müharibələrin alovlandığı bir vaxtda Azərbaycandan keçən Orta Dəhlizin, Zəngəzur dəhlizinin, Qərbi azərbaycanlıların öz yurdlarına dönməsi məsələlərinin gündəmə gəldiyi bir platformanın Xankəndindən ucalan səsi bütün dünyaya açıq ismarıc olub".

**İsmayıl**

# Yeni dövr başlayır

## Bakı və Pekin qarşılıqlı etimada əsaslanan münasibətlər qurur



**"Dünyanın üzləşdiyi qlobal problemlər və çağırışlar dövlətlərarası səmimi və etibarlı münasibətləri zərurətə çevirir. Hərtərəfli əməkdaşlıq isə praqmatik diplomatiyadan, mədəni və humanitar əlaqələrin inkişafından və davamlı dialoqdan keçir.**

Azərbaycan da ənənəvi olaraq müxtəlif regionlar arasında dialoqun təşviqinə xidmət edərək, xarici siyasətində və dövlətlərlə əlaqələrində qarşılıqlı səmimi münasibətlərə üstünlük verir".

**Bu sözləri "Şərq"ə açıqlamasında siyasi şərhçi Elmir Səftərov Azərbaycan-Çin münasibətlərini şərh edərkən söyləyib.**

Onun sözlərinə görə, Azərbaycan və Çin dövlətinin başçıları da səmimi və dostluq şəraitində bu əlaqələri daha da irəliyə aparmaq üçün zəmin hazırlayırlar: "Diplomatik münasibətlərin qurulmasından keçən 33 il ərzində Azərbaycan-Çin əlaqələrinin inkişafında ciddi nailiyyətləri əldə olunub, bu da siyasi qarşılıqlı etimadı möhkəmləndirib, hərtərəfli əməkdaşlığın genişlənməsinə təkan verib. Ölkələr praktiki əməkdaşlığı təşviq edərək, beynəlxalq və regional təşkilatlarda kommunikasiyanı dəstəkləyir. Həmçinin mütəmadi olaraq siyasi məsləhətləşmələr həyata keçirirlər. Hər iki tərəf dövlət suverenliyinin, təhlükəsizliyinin və ərazi bütövlüyünün qorunmasında bir-birini qətiyyətlə dəstəkləyib.

Azərbaycan və Çin "Bir kəmər və yol" təşəbbüsünün birgə tikintisi ilə Azərbaycanın "İpək Yolunun Dirçəldilməsi" milli inkişaf strategiyası ilə 2030-cu ilədək iqtisadi və sosial inkişaf strategiyası arasında əlaqəni gücləndirmək barədə razılığa gəlmələri uzunmüddətli əməkdaşlığa öz töhfəsini verəcək. Tərəflər arasında böyük potensiala malik sənaye, turizm, kənd təsərrüfatı, rəqəmsal transformasiyalar, neft-kimya, metallurgiya, toxuculuq, əczaçılıq, maşın və avadanlıqlar, bərpa olunan enerji və digər sahələrində əməkdaşlığı möhkəmləndirir və genişləndirir".

**Analitik vurğulayıb ki, ölkələrimiz mədəniyyət, incəsənət və təhsil sahələrində də əməkdaşlığı təşviq edir, qarşılıqlı mədəniyyət günlərini keçirir:**

"Bu isə xalqlar arasında qarşılıqlı anlaşmanı gücləndirir, sivilizasiyalararası mübadiləni təşviq edir. İyun ayında Azərbaycanla Çin arasında viza rejiminin ləğvinin təsdiqlənməsi də qarşılıqlı mübadilə və əməkdaşlığı təşviq edən məsələlərdəndir".

**Aynur Babazadə**




# Mövcud şəxsiyyət vəsiqələri qüvvədədir

## Yəni heç kim üçün əlavə ödənişdən söhbət getməyəcək

**Parlamentin dünənki iclasında "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında" qanuna dəyişiklik müzakirə edilərək qəbul olunub.**

Layihə barədə Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli məlumat verib. Bildirilib ki, şəxsiyyət vəsiqəsinin qanunvericiliyin tələbi ilə müəyyən olunan yeni standartlarla təyin olunan vəsiqələrin alınması məcburi deyil. Komitə sədri qeyd edib ki, yeni vəsiqənin əldə olunması qanunda nəzərdə tutulan hallarda baş verəcək: "Vəsiqənin müddəti, şəxsiyyət vəsiqələrinin etibarlılıq müddəti bitdikdə, vətəndaşın yaşı 15-ə çatdıqda və qanunla nəzərdə tutulan digər hallarda vətəndaşların vəsiqəsi yeni standartlarla nəzərdə tutulan formada veriləcək".

İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fazil Mustafa deyib ki, bu, əhalini maraqlandıran məsələdir. Onun sözlərinə görə, qanunvericiliyə təklif olunan dəyişikliyə əsasən, hazırkı şəxsiyyət vəsiqələrindən fərqli olaraq yeni nəsil şəxsiyyət vəsiqələrində yaşayış yeri və vəsiqənin verilmə tarixi göstərilməlidir: "Bəs şəxsiyyət vəsiqələri hansı müddətdə dəyişdirilməli olacaq?".

**Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli cavabında bildirib ki, vaxtı bitən, qanunvericiliklə nəzərdə tutulmuş hallarda, yaşla və ya dəyişdirilməsi tələb olunan hallarda şəxsiyyət vəsiqəsini yeniləmək lazımdırsa, həmin dövrdə yeni şəxsiyyət vəsiqəsi veriləcək:**

"Mövcud şəxsiyyət vəsiqələri isə qüvvədədir. Yəni heç kim üçün əlavə ödənişdən söhbət getməyəcək". Komitə sədri dəyişikliklərin beynəlxalq aviasiyanın tələblərindən irəli gəldiyini bildirib.

**İsmayıl**

# Zurabişvili ilə bağlı ziddiyyətli məqamlar var

## Müxalifət onu ümumi lider səviyyəsinə qaldırmaqdan çəkinir



**Gürcüstanın keçmiş Prezidenti Salome Zurabişvilinin Tbilisi meri vəzifəsinə namizədliyinin irəli sürülməsi təklif edilib.**

Bu təşəbbüslə müxalif "Güclü Gürcüstan" koalisiyasının liderlərindən biri Aleko Elisaşvili "TV Pirveli" kanalının efirində çıxış edib.

A.Elisaşvilinin təklifinə əsasən, S.Zurabişvili müxalifətin Tbilisi merliyinə vahid namizədi olmalıdır.

Siyasətçi müxalifəti yerli seçkilərdə altı iri şəhərdə mübarizə aparmağa, digər şəhərlərdə isə seçkiləri boykot etməyə çağırıb. O qeyd edib ki, müxalifət emosiyaları kənara atmalı və mübarizə strategiyası barədə düşünməlidir.

Qeyd edək ki, S.Zurabişvili yerli seçkilərlə bağlı mövqeyini sabah ictimaiyyətə açıqlayacaq.

Xatırladaq ki, Gürcüstanda yerli seçkilər bu ilin oktyabrın 4-nə təyin olunub. Seçicilər 64 şəhər və rayon üzrə mer və sakrebulolara (məşvərətçi orqanlar) deputatlar seçəcəklər.

**Politoloq Turab Rzayev "Şərq"ə bildirib ki, Salome Zurabişvili müxalifətin vahid namizədi olmaq istəyir:**

"Bu isə əvvəlki cəhdlərində uğursuz oldu, bacarmadı, amma yenə də fəaliyyətini davam etdirir. Düşünür ki, bütün müxalifət onu qəbul edəcək. Yəni əsas müxalifət partiyaları bu istiqamətdə çalışırlar. Aydındır ki, qarşıdan gələn seçkilərdə ona baş nazir mövqeyi verilməyəcək. Prezident postunu isə artıq faktiki olaraq itirib. Hakimiyyət müxalifətə keçməsə, o bu postu geri ala bilməyəcək. Ona görə də indi hansısa rəhbər vəzifəyə iddia edir ki, bu da müəyyən mənada başadüşüləndir. Amma məsələ ondadır ki, müxalifət onu qəbul edərmi? Bu, sual altındadır. Çünki müxalifətin öz daxilində fərqli mövqelər var - bəziləri parlamentdə, bəziləri meydanda, bəziləri isə proseslərdən kənardadır. Müxalifət niyə onun şərtlərini qəbul etməlidir? İkinci məsələ isə budur ki, Salome Zurabişvili ilə bağlı ziddiyyətli məqamlar var. Müxalifət onu ümumi lider səviyyəsinə qaldırmaqdan çəkinir. Digər tərəfdən, bəzi partiyalar və onların liderləri şəxsi səbəblərdən onu rəhbər kimi qəbul etmək istəmirlər. Eyni zamanda, Salomenin özü də vəziyyəti başa düşür. Əlavə təhlükə odur ki, o, əvvəlki mövqeyindən uzaqlaşıb, amma bu dəyişiklik onun lehinə də işləyə bilər".

**Politoloqun fikrincə, seçki ərəfəsində baş verəcək siyasi proseslər nəyisə dəyişə bilər:**

"Lakin yenə müxalifət daxilində, heç olmasa, Salomenin ətrafında belə bir vahid birlik yaranacaqmı? Bəziləri düşünür ki, seçkilərə qədər Tbilisidə müxalifətin birliyi formalaşa bilər və bu birlik daha sonra parlament seçkilərinə də təsir edər. Üstəlik, onun Fransadan və xaricdən müəyyən dairələrdən ciddi dəstəyi var. Bu da onun seçki kampaniyasına kömək edə bilər".

**Aynur Babazadə**

# Dövlət büdcəsindən xüsusi pay ayrılacaq

## "Polis haqqında" qanuna dəyişiklik qəbul edilib



**Polis əməkdaşlarının sosial müdafiəsini gücləndirmək və polis orqanlarının maddi-texniki bazasını möhkəmləndirmək üçün polisin fəaliyyətinin maliyyələşdirilməsi mənbələri artırılır.**

Bu, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin bu gün keçirilən iclasında müzakirəyə çıxarılan "Polis haqqında" qanuna təklif edilən dəyişiklikdə əksini tapıb.

Layihəyə əsasən, polis əməkdaşlarının sosial müdafiəsini gücləndirmək və polis orqanlarının maddi-texniki bazasını möhkəmləndirmək məqsədilə aşağıdakı vəsaitlər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) xəzinə hesabına köçürüləcək:

- polis orqanları tərəfindən istintaqı aparılan cinayət işləri və cinayət təqibi ilə bağlı digər materiallar üzrə cinayət nəticəsində dövlətə vurulmuş ziyanın ödənilməsi üçün ibtidai araşdırma dövründə dövlət büdcəsinə köçürülmüş vəsaitin 5 faizi;
- polis orqanları tərəfindən istintaqı aparılan cinayət işləri üzrə Cinayət Məcəlləsi ilə müəyyən edilmiş qaydada şəxsin cinayət məsuliyyətindən azad edilməsi üçün dövlət büdcəsinə edilmiş ödənişdən daxil olan vəsaitin 5 faizi.

Nəzərdə tutulmuş vəsaitdən istifadə qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunacaq.

*Qeyd edilib ki, analoji norma "Prokurorluq haqqında" qanunun 39-cu maddəsində də öz əksini tapıb.*

*Müzakirələrdən sonra qanun layihəsi səsverməyə çıxarılaraq üçüncü oxunuşda qəbul edilib.*



**İran Prezidenti Məsud Pezeşkianın Azərbaycana səfəri, Prezident İlham Əliyevlə Xankəndidə görüşməsi region ölkələrinin mediasında ciddi əks-səda doğurdu. Xüsusilə Pezeşkianın Azərbaycan və Türkiyə liderləri ilə birgə görüntüsü, səmimi dialoqları İran və Ermənistanda bəzi media qurumlarının tənqid hədəfinə çevrildi.**

Erməni lobbisinin təsiri altında olan İrandakı dairələr Pezeşkianın hərəkətini hətta "siyasi xəyanət" kimi təqdim etdilər. Tənqidlərin hədəfində Pezeşkianın Azərbaycanla yaxınlaşması, Ermənistanla münasibətlərin gələcəyi və İranın Qarabağ məsələsindəki ənənəvi mövqeyindən vaz keçməsi dayanır.

**Tarixçi-alim, professor, keçmiş millət vəkili Nəsib Nəsibli deyib ki, üç ölkə liderinin - İlham Əliyev, Pezeşkian və Ərdoğanın birgə fotosu dünya mediasını dolaşır. Alimin sözlərinə görə, dost da, düşmən də bu fotoya münasibət bildirir:**

"Bu görüntü Qarabağ zəfərindən sonra bölgədəki geosiyasi gedişatı göstərən sənəddir. Ələlxüsus İran Prezidenti Məsud Pezeşkianın iki Türk dövlətinin lideri ilə səmimi ortamda söhbəti həqiqətən son dəyişikliyin göstəricisidir. Pezeşkian yeganə prezidentdir ki, "mən türkəm, türklüyümlə fəxr edirəm deyir". 1993-cü ilin əvvəllərində siyasi liderlərdən biri ilə Tehranda təkbətək görüşmüşdüm. İrandakı türklər arasında elə də böyük hörməti-filanı yox idi. İnqilabdan sonra eyforiyaya qapılıb öz soydaşlarına qarşı çox cinayətlər etmişdi. Onun dediyi fikir sözügedən fotonu anlamağa kömək edə bilər. Dedim ki, "Azərbaycan Respublikası bir türk ölkəsidir, varlığı İrandakı türklərə təsir edəcək və onları "İran" vahidindən qopmağa təhrik edəcək". Düşündüm ki, etiraz edəcək. Amma adam "Azərbaycan, Türkiyə, İrandakı türklər bir yerdə olsa, bir ovuc fars nə edə bilər ki?!" dedi. Türkçülükdən uzaq İrançı xadimin sözü mənalı idi. Deməк ki, o da bu məsələləri düşünürmüş...".

**Tarixçi vurğulayıb ki, Pezeşkian türkçü platformda seçkiyə qatılıb və ali rəhbərin maneəsi olmadan seçkini qazanıb:**

"Türklərin və başqa fars olmayanların səsləri ilə seçkini udub. Seçkidən hələ bir il keçməyib. Pezeşkianın Azərbaycan və Türkiyə ilə münasibətlərin istiləşməsi tərəfdarı olması üzündəki təbəssümdən də görünür. Hələlik azərbaycanlılara vəd edilmiş problemlərin - təhsil sistemində ana dilinin öyrədilməsi, Urmunun qurtarılması, Azərbaycan sərvətlərinin İranın başqa bölgələrinə daşınmasının qarşısının alınması və s. heç biri həll edilməyib. Amma rəsmi siyasi ortamda ciddi müzakirə mövzusuna çevrilib. Bu, problemin çözülməsi üçün ilk ciddi addımdır. Pezeşkianın ən böyük xidməti bunlar deyil. O, qatı türk düşməni olan İran dövlətində türklük üzərinə qoyulmuş tabunu alt-üst etdi. Milli kimliyin inkişafının yolunu açdı. İrandakı türklərin ən böyük probleminin milli kimlik olduğunu göz önünə alsaq, məsələnin həssaslığını idrak edə bilərik".

**N.Nəsibli qeyd edib ki, üçlü fotodan İrandakı şovinist-irqçi kəsim, bir də bizim xaricdə olan milli fəalların bir hissəsi yaman narahatdır:**

"Türk düşmənlərinin münasibəti anlaşılandır, məntiqlidir. Amma bizimkilərin Pezeşkian şəxsiyyətinə düşmən kəsilməsi məntiqsizdir. Deyirlər, "bu adam milli hərəkatın lideri olmaq istəyir". Eyvallah, qoyun olsun, yetər ki, xidmətləri sayəsində bu adı qazansın. Bu qədər həngamədən sonra yenə deyirlər ki, bu, oyundur. Yaxud deyirlər ki, "İran dağılmaq ərəfəsində idi, bu gəldi, prosesi ləngitdi". Bu yanlışı sübut etməyə gərək yoxdur. Pezeşkian məsələsi İran dərin dövlətinin layihəsi olsa belə, baş verənlər göstərir ki, qurğu yanlış planlaşdırılıb. Bəziləri bildirir ki, Pezeşkianın səlahiyyətləri məhduddur, əlindən bir iş gəlməz. Məhdud səlahiyyətlə böyük işlərə ustaca girişirsə, bu, onun ciddiliyinə dəlalət edir. Əslində, biz ona Tanrıdan səbr və tədbirli olmaq arzulamalıyıq. Azərbaycan Pezeşkianı irqçilərə yem etməyəcək və seçkidə verdiyi dəstəyi daha da artıracaq. "Bu şansı yaxşıca dəyərləndirib, özümüz fəal olmalıyıq" fikirləri də gələcəyə ümidlə baxmağa əsas verir".

# Azərbaycan Pezeşkianı irqçilərə yem etməyəcək

## Nəsib Nəsibli: "Biz ona Tanrıdan səbir və tədbirli olmağı arzulamalıyıq"



**"Bizimkilərin Pezeşkian şəxsiyyətinə düşmən kəsilməsi məntiqsizdir. Deyirlər, "bu adam milli hərəkatın lideri olmaq istəyir". Eyvallah, qoyun olsun, yetər ki, xidmətləri sayəsində bu adı qazansın"**

**İsmayıl**

# DTX-dan xüsusi əməliyyat

## Gizli görüntüləri satan şəbəkə ifşa olundu



**Videomüşahidə kameralarının görüntülərinin ələ keçirilməsi ilə bağlı kibertəhlükəsizlik tədbirləri həyata keçirilib.**

"Şərq" DTX-yə istinadən xəbər verir ki, Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən kibertəhdidlərə qarşı mübarizə istiqamətində kompleks tədbirlər davam etdirilir.

Azərbaycan Respublikasının ərazisində yerləşən müxtəlif ofislərdə və mənzillərdə quraşdırılmış videomüşahidə kameralarının idarəetmə qurğularına (DVR) qlobal internet şəbəkəsi üzərindən məsafədən icazəsiz qoşularaq bu mənzillərdə yaşayan sakinlərin şəxsi və ailə həyatının sirrini təşkil edən məlumatları əks etdirən videomaterialları ələ keçirməklə xarici internet informasiya resurslarına yerləşdirilməsini ehtiva edən qanunazidd əməllərlə bağlı əməliyyat-texniki tədbirlər həyata keçirilib.

Aparılmış araşdırmalarla həmçinin, Azərbaycanda müxtəlif ünvanlarda olan videomüşahidə kameralarının görüntülərinin real vaxt rejimində izlənilməsi imkanına malik istifadəçi hesablarının satışa çıxarıldığı da müəyyən olunub.

Faktla əlaqədar DTX tərəfindən aidiyyəti dövlət qurumları ilə birgə kibermüdaxilə hallarının zərərli nəticələrinin aradan qaldırılması təmin edilib.

Görülmüş təxirəsalınmaz tədbirlərlə kibermüdaxiləyə məruz qalmış müşahidə kameralarının yerləşdiyi ünvanlar təsbit edilib, bu cihazlara keçirilmiş texniki baxış zamanı ümumi təhlükəsizlik boşluğu aşkarlanıb və həmin boşluğun kibermüdaxilənin əsas faktoru olduğu müəyyənləşdirilib.

Eyni zamanda, qeyd olunan təhlükəsizlik boşluğunun aradan qaldırılması aidiyyəti xarici istehsalçı şirkətdən tələb edilmiş, habelə kibermüdaxiləyə məruz qalmış kameraların videogörüntülərinin xarici internet informasiya ehtiyatlarından silinməsi təmin olunub.

Vətəndaşlara informasiya-kommunikasiya vasitələri ilə bağlı müvafiq qaydalara ciddi riayət etmələri, mənşəyi və texniki göstəriciləri məlum olmayan avadanlıqlardan istifadə zamanı diqqətli olmaları tövsiyə edilir.

# Paşinyan hökuməti bu təklifə etirazını bildirməyəcək

## Türkiyə-Ermənistan sərhədində "Əlican" sərhəd-keçid məntəqəsinə Tələt Paşanın adının verilməsi təklifi təqdirəlayiqdir




**Türkiyə ilə Ermənistanla sərhəddə yerləşən Əlican sərhəd-keçid məntəqəsinin adının Tələt Paşa adına dəyişdirilməsi təklif edilir. Türkiyənin İYİ Partiyasının millət vəkili Müsavat Dərvişoğlu bununla bağlı qanun layihəsini parlamentə təqdim edib.**

Qanun layihəsini 28 deputat imzalayıb. Təqdim olunan qanun layihəsində qeyd olunub ki, ad dəyişikliyi yalnız lövhənin dəyişdirilməsi deyil, bu, türk xalqının öz tarixinə, qəhrəmanlarına və yaddaşına sahib çıxmaq iradəsinin təzahürüdür. Çünki milli qəhrəmanlarını unudan xalqlar zaman keçdikcə unudulmağa məhkum olurlar: "Əlican sərhəd keçid məntəqəsinin adının Tələt Paşanın adı ilə dəyişdirilməsi eyni zamanda o deməkdir ki, düşmən qarşısında möhkəm dayanan xalq öz sərhədlərində tarixi kimliyini möhürləyir".

**Türkoloq-alim, siyasi şərhçi Faiq Ələkbərli "Şərq"ə açıqlamasında Türkiyənin İYİ Partiya sədri Müsavat Dərvişoğlunun təklifini bəyəndiyini deyib. Alim bildirib ki, Tələt Paşa Osmanlının son dönəmində baş nazir olub, mühüm addımlar atıb:**

"Tələt Paşa türk dünyası, türk xalqlarının birliyi üçün çox mücadilə verib. Məhz onun bu istiqamətdə mübarizəsi düşmənlər tərəfindən birmənalı qarşılanmadı və erməni terrorçusu tərəfindən şəhid edilmişdi. O səbəbdən Türkiyə-Ermənistan sərhədində "Əlican" sərhəd-keçid məntəqəsinə Tələt Paşanın adının verilməsi təklifi təqdirəlayiqdir. Ermənistanda bəzi şovinistlərin, erməni daşnaklarının bu məsələdən ciddi narahatlığı, etiraz var və bunun da səbəbi bəllidir. Bütün hallarda İYİ Partiyanın bu təklifi dəstəklənməlidir. Əgər hökumət və parlament də dəstəkləyərsə, reallaşa bilər. Nikol Paşinyan hökuməti də Türkiyə ilə münasibətlərin normallaşmasının tərəfdarıdır".

**F.Ələkbərlinin qənaətincə, artıq İrəvan Tələt Paşanın bir erməni daşnakı tərəfindən qətlə yetirilməsinin cinayət olduğunu dərk edir:**

"Ən azından Paşinyan və ətrafı bunun fərqindədir. Ona görə düşünürəm ki, Paşinyan hökuməti bu təklifə etirazını bildirməyəcək. Daha çox revanşistlər, şovinistlər və daşnakların etiraz edəcəyi bəllidir. Nə olursa-olsun, türk xalqlarının tarixində ciddi qəhrəmanlıq göstərmiş şəxslərə önəmi, diqqəti artırmaq lazımdır".

**İsmayıl Qocayev**

# Koksaki virusu kabus kimi geri döndü

## Parkdan evə gəlir, boğaz ağrısı ilə başlayır, ürəyə zərbə vurur





**Yay mövsümündə uşaqların müxtəlif viruslara yoluxmaq, bioloji çirklənməyə məruz qalmaq təhlükəsi daha da artır. Təhlükəyə diqqət çəkən pediatr Vaqif Qarayev açıq su hövzələrinin, çimərlik, əyləncə məkanlarının risk daşıdığını deyib.**

- Uşaqlar arasında əl-ayaq-ağız xəstəliyi yayılıb. Səbəbi əsasən Koksaki virusudur. Yoluxma həm virusla çirklənmiş əşyalarla kontaktdan, həm də hava-damcı yolu ilə baş verir. Kifayət qədər sürətlə yayılır xəstəlik. Yüksək temperatur fonunda əldə, ayaqda spesifik səpkilər, ağız boşluğunda isə içi maye ilə dolu səpkilər müşahidə olunur. Səpkilərə sağrı nahiyəsində, dirsək və diz büküşlərində də rast gəlmək olur. Xəstəliyin spesifik müalicəsi yoxdur, ortalama bir həftə ərzində keçir. Gigiyenik qaydalara, o cümlədən ağız gigiyenasına ciddi əməl etmək lazımdır ki, uşaq su içə, qida qəbul edə bilsin deyə. Səpkilər görünürsə, mütləq həkimlə əlaqə saxlanılmalıdır.

**V.Qarayev "Şərq"ə açıqlamasında koksaki virusu haqqında daha ətraflı məlumat verərək qeyd etdi ki, koksaki virusu enteroviruslar adlanan RNT viruslar ailəsinə aiddir və bütün dünyada yayılıb. Koksaki virusu ilk dəfə ABŞ-nin Nyu-York əyalətindəki Coxsackie şəhərində aşkarlanıb, adını da buradan götürüb. Bu viruslar xüsusilə balaca uşaqlarda müxtəlif xəstəliklərə səbəb olur. İnfeksiyalar ən çox yayda və payızın əvvəlində baş verir:**

- Koksaki virusu asqırma və öskürək zamanı havaya keçən tənəffüs damcıları vasitəsilə yayıla bilər. Uşaqlar virusla çirklənmiş səthlərə və ya əşyalara toxunduqdan sonra da yoluxa bilərlər. Virusun yayılmasının digər yolları infeksiyaya yoluxmuş birinin nəcisi ilə və ya anadan doğulan körpəsinə təmasdır. Əksər koksaki virusları üçün məruz qalmadan simptomların başlanmasına qədər olan adi vaxt 3-6 gündür. Səpkilər və qızartılardan əlavə uşaqlarda halsızlıq və qızdırma əlamətləri, iştahsızlıq da müşahidə edilə bilər. Amma xəstəlik öz-özünə keçir. Virus badamcıqlarda və ətraf toxumalarda, xüsusən də ağızda səpgi və qabarcıqlar əmələ gətirərək boğaz ağrısına səbəb olur. Növündən asılı olaraq bu virus qan dövranı ilə daxili orqanlarda daha ciddi infeksiyalara səbəb ola bilir. Yüksək hərarət və döş qəfəsində ağrılarla müşahidə olunan plevrit xəstəliyi və ürəyin viral infeksiyası olan miokarditə də səbəb ola bilər. Əgər uşaqda boyun, sinə ağrısı, nəfəs almaqda çətinlik və ya süstlük müşayiət edilirsə, mütləq həkimə müraciət edilməlidir.

Pediatr qeyd etdi ki, əksər hallarda diaqnoz kliniki nəticələrə - əlamətlərə əsaslanır və heç bir laboratoriya testi tələb olunmur. Bununla belə, diaqnozu təsdiqləmək üçün pediatr boğaz, burun, nəcis və ya uşağın bədəninin digər bölgələrindən nümunələri yoxlaya bilər. Uşağın qızdırmasını aşağı salmaq, ağızdakı yaraların narahatlığını azaltmaq üçün dərman preparatlarından istifadə edilir.

**Həkim qeyd etdi ki, uşaqların gigiyenasına və təmizliyə riayət etmələrinə ciddi fikir verilməlidir:**

- İlk növbədə əllərin yeməkdən öncə yaxşı-yaxşı yuyulması vacibdir. Uşaq küçədən, gəzməkdən evə qayıtdıqda mütləq şəkildə əllər yuyulmalı, ayaqqabı ilə mənzilə daxil olmaq qadağan edilməlidir. Gəzintidə olarkən də uşaqlar əllərini hara gəldi sürtür, müxtəlif səthlərə təmas edirlər. Gəzintidə uşaq qidalanacaqsa, əllər mütləq ciddi şəkildə təmizlənməlidir, sonra yemək verilməlidir. Yayda çimərliklər də yoluxma mənbəyi ola bilər. Əgər çimərlik ərazisi, dəniz suyu çirklənibsə, yoluxma təhlükəsi realdır. Çalışmaq lazımdır ki, dənizdə çimərkən hər ehtimala qarşı dəniz suyu daxilə qəbul edilməsin. Valideynlər üzgüçülük hovuzlarına da aparır uşaqlarını. Hovuzun suyunun xüsusi maddələrlə təmizlənib-təmizlənməməsini bilmək lazımdır.

**Məlahət Rzayeva**

# Ölkəyə Vahid İstintaq Komitəsi lazımdır!

## Çingiz Qənizadə də Qüdrət Həsənquliyevin təklifinə dəstək verdi



**Milli Məclisin deputatı Qüdrət Həsənquliyev "Polis haqqında" qanuna dəyişiklik layihəsinin müzakirəsində təklif edib ki, Azərbaycanda Vahid İstintaq Komitəsi yaradılmalıdır.**

Q.Həsənquliyev vurğulayıb ki, əldə olunan uğurlarla yanaşı, nöqsanlar da müzakirə edilməlidir: "Azərbaycanda 8 müxtəlif dövlət orqanında istintaq komitəsi var. Qonşu dövlətlərdə olduğu kimi, bizdə də vahid istintaq komitəsi yaradılmalıdır".

**Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri, hüquq müdafiəçisi Çingiz Qənizadə "Şərq"ə açıqlamasında Qüdrət Həsənquliyevin təklifini tam dəstəklədiyini deyib. Ekspert bildirib ki, Q.Həsənquliyev bu məsələyə hüquqşünas kimi yanaşır:**

"Ölkədə ayrı-ayrı qurumların tərkibində istintaq idarələri möcvuddur. Hesab edirəm ki, bu, düzgün deyil. Çünki bir qurumun özünün istintaq aparması başadüşülən deyil. O baxımdan düşünürəm ki, ölkədə vahid istintaq komitəsinin yaradılması yaxşı olar. Hələ Milli Məclisin üzvü olarkən, təxminən 6-7 il öncə bir neçə dəfə mətbuatda bu məsələyə toxunmuşam. Vahid İstintaq Komitəsi olsun və bu Komitənin nəzdində müəyyən idarələr - Daxili İşlər Nazirliyi, Gömrük Komitəsi, Ədliyyə Nazirliyi, Sərhəd Xidməti və s. qurumlarla bağlı şöbələr fəaliyyət göstərsin. 8 qurumda ayrılıqda istintaq idarələrinin olması anlaşılmazdır. Orada çalışanları ixtisar etmək də doğru deyil, çünki onlar artıq mütəxəssislərdir. İstintaq idarələri tam tərkibdə yaradılacaq Vahid İstintaq Komitəsinə köçürülə, bir idarə formalaşdırıla bilər. Bu vahid idarəyə də Baş Prokurorluq nəzarət etməlidir. Çünki qanunların icrasına nəzarət hüquqi Baş Prokurorluqdadır. Başqa dövlətlərin təcrübəsinə də baxa bilərik. Həmin təcrübəni Azərbaycanda tətbiq etməyin zamanıdır".

**İsmayıl**





# "Qardaşım erməni gülləsinə tuş gəldi"

## Ruben Vardanyanın məhkəməsində Şuşa, Xocalı, Ağdam, Kəlbəcər faciələri səsləndi

**Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi iyulun 8-də davam etdirilib.**

"Şərq" xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) təqsirləndirilən şəxs bildiyi dildə, yəni, rus dilində tərcüməçi, habelə müdafiəsi üçün özünün seçdiyi vəkillə təmin olunub.

Hakim Zeynal Ağayev dindirmədən əvvəl məhkəmə prosesində ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə və zərərçəkmiş şəxslərin hüquqi varislərinə qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Sonra Zeynal Ağayev bildirib ki, təqsirləndirilən Ruben Vardanyanın ötən iclasda verdiyi vəsatətlə bağlı cinayət işinin materialları nəzərdən keçirilib. Qeyd edib ki, məhkəmə onun və müdafiəçisinin verdiyi bütün vəsatətləri qiymətləndirib.

Ardınca Ruben Vardanyan məhkəməyə müraciət edib. Bildirib ki, daha əvvəl məhkəmə kollegiyası iclas protokolları ilə tanış olmaq üçün ona və müdafiəçisinə şərait yaradıb. Hazırda isə məhkəmə hazırlıq iclasında qəbul edilmiş və protokollarda öz əksini tapmış qərarlarla tanış olmaq istəyirlər. Bundan başqa, müdafiə tərəfi müxtəlif tarixlərdə keçirilən iclaslarda verdikləri vəsatətlərin təmin olunmasına dair qərarlardan çıxarışın da onlara təqdim olunmasını xahiş edib.

Vəkil Avraam Berman təqsirləndirilən şəxsin müraciətini müdafiə edib.

İclasa sədrlik edən hakim Zeynal Ağayev deyib ki, indiyədək təqsirləndirilən şəxs və onun müdafiəçisinə istədikləri sənədlərlə tanış olmaq üçün məhkəmə tərəfindən şərait yaradılıb, əvvəl olduğu kimi, yenə də şərait yaradılacaq.

Bundan sonra Ermənistanın təcavüzkar müharibəsi və işğalçılıq siyasəti nəticəsində törədilmiş cinayət hadisələri zamanı zərər çəkənlər, habelə zərərçəkmişlərin hüquqi varisləri ifadə veriblər.

Zərərçəkmiş Elməddin Lətifovun hüquqi varisi qismində ifadə verən Sabir Lətifov deyib ki, onun qardaşı Ermənistan silahlı qüvvələrinin qalıqları və qeyri-qanuni erməni silahlı dəstələrinin törətdiyi təxribat nəticəsində həlak olub.

Zərərçəkmiş Şamil Həsənovun hüquqi varisi Şiraslan Həsənov övladının Ağdam rayonu istiqamətində düşmən tərəfindən açılmış atəş nəticəsində həyatını itirdiyini bildirib.

Zərərçəkmiş Şamxal Həmidovun hüquqi varisi qismində tanınaraq dindirilən Asif Şükürov qeyd edib ki, ki, Ş.Həmidov Ağdərə rayonunun Sırxavənd kəndi istiqamətində düşmən tərəfindən açılan atəş nəticəsində həlak olub.

Zərərçəkmiş Bəhruz Rüstəmlinin hüquqi varisi Mövlam Rüstəmli ifadəsində qardaşının Xocalı rayonu istiqamətində düşmənin açdığı atəş nəticəsində qəlpə yaralarından öldüyünü bildirib.

Zərərçəkmiş Kamal Qasımovun hüquqi varisi Sevinc Qasımova oğlunun Xankəndi şəhəri istiqamətində Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən açılmış atəş nəticəsində həyatını itirdiyini söyləyib.

Zərərçəkmiş Pərviz Hünbətov ifadəsində deyib ki, Ağdam rayonunun Xanabad kəndi ərazisində düşmən tərəfindən atılmış minaatan mərmisinin partlaması nəticəsində yaralanıb. Dövlət ittihamçısı Fuad Musayevin suallarını cavablandıran zərərçəkmiş şəxs diqqətə çatdırıb ki, hadisə zamanı Sadiq Qəhrəmanov həlak olub, Ramin Osmanov və Aqil Quliyev isə müxtəlif növ bədən xəsarətləri alıblar.

Məhkəmədə ifadə verən Elmir Qasımov isə dövlət ittihamçısı Vüsal Abdullayevin sualına cavabında qeyd edib ki, o, Şuşa istiqamətində Ermənistan silahlı qüvvələrinin qalıqları və qeyri-qanuni erməni silahlı dəstələrinin atdığı minaatan mərmisinin yanına düşərək partlaması nəticəsində sağ çiyin, sol ayaq, baş və bədənin müxtəlif nahiyələrindən çoxsaylı qəlpə xəsarətləri alıb.

Məhəmməd Mahmudov ifadəsində Xocavənd rayonu ərazisindən açılmış atəş nəticəsində kürəyindən xəsarət aldığını vurğulayıb.

Zərərçəkmiş Vəli Balabəyli ifadəsində Ağdərə rayonunun Canyataq kəndi istiqamətində atılmış artilleriya mərmisinin yaxınlığına düşərək partlaması nəticəsində xəsarət aldığını deyib. O, dövlət ittihamçısı Nəsir Bayramovun suallarını cavablandırarkən hadisə zamanı yanında olan daha iki nəfərin yaralandığını söyləyib.

Məhkəmədə ifadə verən Məhəmməd Kərimov isə Xocalı istiqamətində düşmənin snayperdən açdığı atəş nəticəsində boğaz nahiyəsindən yaralandığını, bir neçə şəxsin isə həlak olduğunu bildirib. Baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin sualına cavabında diqqətə çatdırıb ki, həmin vaxt düşmən ərazilərimizi iriçaplı silahlarla atəşə tutub.

Zərərçəkmiş Namiq Atakişiyev Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimlinin sualına cavabında vurğulayıb ki, o, Ağdam istiqamətində atılmış mərminin yaxınlığına düşüb partlaması nəticəsində xəsarət alıb.

Zərərçəkmiş şəxs Oruc Məmmədov Xocavənd rayonu ərazisində atılan artilleriya mərmisinin yaxınlığına düşərək partlaması nəticəsində xəsarət aldığını söyləyib.

Digər zərərçəkmiş Amin Cavadov isə ifadəsində qeyd edib ki, Ağdərə rayonunun Canyataq kəndi ərazisində düşmən tərəfindən atılan artilleriya mərmisinin içərisində olduğu maşının üzərinə düşərək partlaması nəticəsində xəsarət alıb. O, dövlət ittihamçısı Təranə Məmmədovanın suallarını cavablandırarkən hadisə zamanı Tural Ağcabəyov və Mirpaşa Mehdizadənin həlak olduğunu, özündən başqa daha dörd nəfərin isə yaralandığını söyləyib.

Zərərçəkmiş Etibar Hüseyinli ifadəsində deyib ki, Cəbrayıl rayonunun Əmirvarlı kəndinin ərazisində yerləşən əkin sahəsində piyada əleyhinə minanın partlaması nəticəsində xəsarətlər alıb.

Zərərçəkmiş Pərviz Qənbərov bildirib ki, Şuşa rayonunun Xəlfəli kəndində düşmən tərəfindən atılmış minaatan mərmisinin partlaması nəticəsində o, Rəşad Əliyev və Rəhim Nəsirov müxtəlif növ bədən xəsarətləri alıblar.

Zərərçəkmiş şəxs Mərkəz Sadıqov qeyd edib ki, Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən atılan artilleriya mərmilərindən biri onun təxminən 7-8 metr yaxınlığına düşərək partlayıb və nəticədə çoxsaylı xəsarətlər alıb.

Zərərçəkmiş şəxs Valeh İbrəhimov deyib ki, düşmən tərəfindən atılmış "Faqot" tank əleyhinə idarə olunan raketin yaxınlığında partlaması nəticəsində bədəninin müxtəlif nahiyələrindən qəlpə yaraları alıb.

Araz Usubov ifadəsində Xocavənd rayon ərazisində düşmən tərəfindən atılmış mərminin partlaması nəticəsində ayaqlarından və boynundan çoxsaylı qəlpə xəsarətləri aldığını diqqətə çatdırıb.

Zərərçəkmiş Etibar Səfərov Kəlbəcər rayonunun ərazisində Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən atılan minaatan mərmisinin partlaması nəticəsində xəsarət alığını söyləyib.

Orxan Kərəmli ifadəsində Ağdərə rayonu ərazisindən atılan minaatan mərmisinin yaxınlığına düşərək partlaması nəticəsində xəsarət aldığını deyib.

Zərərçəkmiş Vasif Yusupov Kəlbəcər rayonunda düşmən tərəfindən açılmış artilleriya atəşi nəticəsində yaralandığını bildirib.

Etibar Baxışov isə Ağdərə istiqamətində Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən atılan mərminin partlaması nəticəsində qəlpə xəsarəti aldığını qeyd edib.

Bəhruz Nəzərov ifadəsində bildirib ki, Zəngilan rayonunda düşmən tərəfindən atılmış mərminin partlaması nəticəsində yaralanıb.

Məhkəmə prosesində, həmçinin zərərçəkmiş şəxslərin barələrində keçirilmiş məhkəmə-tibbi ekspertizasının rəyləri elan edilib.

Məhkəmənin növbəti iclası iyulun 15-nə təyin olunub.




# Top Ermənistandadır

## İran geri çəkilir, İrəvan Zəngəzur qərarını verməlidir

**Zəngəzur dəhlizi təkcə Azərbaycan üçün deyil, bütün region üçün yeni imkanlar gətirəcək. Bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycana səfərindən sonra jurnalistlərə müsahibəsində deyib.**

Ərdoğan qeyd edib ki, Türkiyə bu dəhlizi təkcə geosiyasi deyil, həm də geoiqtisadi inqilabın tərkib hissəsi kimi görür: "Zəngəzur dəhlizinin açılışı Orta Dəhliz üçün strateji addım olacaq. Dəhliz açıldığı zaman türk malları Xəzərdən keçərək Orta Asiyaya və Çinə daha sürətlə çatacaq, Avropadan Çinə gedən mallar da Türkiyədən keçməyə başlayacaq. Orta dəhlizin açılması cənubdan bizə və Azərbaycana qədər bir çox ölkələri əhatə edir. Bundan başqa, Çindən gələn yol ilə də inteqrasiya olunub. Belə bir əhəmiyyəti var. Bu prosesdə bütün addımlarımızı ən yaxşı şəkildə atırıq. Burada ən önəmlisi Zəngəzur xəttidir. Bu xəttə dəmir yolu sistemi də daxildir. Bu səbəbdən yükdaşımalarda Zəngəzur xəttinin əhəmiyyəti artır və artacaq". Türkiyə lideri vurğulayıb ki, Azərbaycan Prezidenti İlham Əliyev bu məsələyə böyük önəm verir. Ərdoğan əlavə edib ki, Zəngəzur dəhlizi açıldığı zaman Türkiyənin Qars-İğdır-Naxçıvan dəmir yolu xətti və Qarabağda tikinti yatırımları daha səmərəli fəaliyyət halına gələcək: "Dünya dəyişir və bu vəziyyət yeni addımlar atmağı zəruri edir. Dəyişikliklərlə ayaqlaşmaq potensialı aktivləşdirmək və qazanc qapılarını açmaq deməkdir. Ermənistan və Azərbaycanın imzalayacağı sülh regionun ab-havasını dəyişəcək. Əldə olunacaq barışıq ilə bir-birinin ardınca yeni və tarixi fürsət pəncərələrinin açılmasının şahidi olacağıq. Münaqişələr və müharibələr səbəbindən boş qalan bölgənin potensialının aktivləşməsi ilə qalib modelin daha bir nadir nümunəsi ortaya çıxacaq". Qeyd edək ki, Zəngəzur dəhlizi ilə bağlı Azərbaycan, Türkiyə və Ermənistan arasında razılaşma olmasına dair iddialar yayılıb. "Hraparak" yazıb ki, ABŞ-nin planı anti-Rusiya xətti tutan Ermənistan hakimiyyətinin maraqlarına uyğundur.

**Politoloq İlqar Vəlizadə "Şərq"ə açıqlamasında deyib ki, son günlərdə bu məsələ müzakirə predmetidir. Ekspert vurğulayıb ki, həm Azərbaycan, həm Türkiyə tərəfi öz mövqelərini qoyub:**

"Digər ölkələrlə bu yanaşmalar müzakirə olunub. Bir neçə gün bundan öncə Xankəndidə keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının sammitində də çox güman ki, Zəngəzur dəhlizi müzakirə mövzusu olub. Yolnəqliyyat infrastrukturunun yenidən qurulması kontekstində bu məsələnin müzakirəsi mümkün və təbiidir. Onsuz da bir çox ölkələr Zəngəzur dəhlizinin açılmasını dəstəkləyiblər. İranın mövqeyində müəyyən dəyişikliklər var. İran rəsmiləri artıq əvvəlki kimi dəhlizlə bağlı qıcıqlandırıcı bəyanatlar vermirlər. Bu da ondan xəbər verir ki, Tehran hökuməti də müəyyən reallıqları qəbul etməyə başlayıb. Əlbəttə, qeyri-regional iştirakçılar da bu layihənin reallaşmasında maraqlı görünürlər. İsmarıc da onlaradır. Hazırda top Ermənistandadır. İrəvan nəhayət öz qərarını verməli, layihəyə qoşulmalıdır".

**Siyasi şərhçi əlavə edib ki, əgər Ermənistan Zəngəzur dəhlizinin açılmasına razılıq verərsə, regional layihələrin parçasına çevriləcək:**

"Bununla İrəvan digər layihələrdə də iştirak şansı əldə edəcək. Ancaq İrəvan inadkar mövqeyini sürdürərsə, dalanda qalmağa davam edəcək. Son vaxtlar erməni mətbuatı iddia edir ki, guya Zəngəzur dəhlizinin təhlükəsizliyini ABŞ-nin hansısa beynəlxalq şirkəti həyata keçirəcək. Guya bu şirkət yükləri yoxlayacaq və insanların təhlükəsiz keçidini təmin edəcək və s. Ermənistan hökumətinin bu təklifi götür-qoy etdiyi də deyilir. Amma Azərbaycan tərəfinin bununla bağlı rəsmi açıqlaması, hansısa reaksiyası yoxdur. Bu da onu göstərir ki, sözügedən təklif real deyil. Gündəmdə olan Azərbaycanın irəli sürdüyü şərtlərdir ki, Türkiyə də qeyd-şərtsiz bunu dəstəkləyir. İrəvan Bakının dediklərinə əməl etsə, Zəngəzur dəhlizi açılacaq".

**İsmayıl Qocayev**

# Göydə azadlıq, yerdə faciə

## Beşbarmaq faciəsi ekstrem idmanlara baxışımızı dəyişdirməlidir

**Təhlükəli idman növlərindən biri olan paraşütlə tullanma son illər Azərbaycanda da maraq doğuran ekstremal fəaliyyətlərdən biri halına gəlib. Lakin bu fəaliyyət düzgün icra edilmədikdə və təhlükəsizlik qaydalarına əməl olunmadıqda ölümlə nəticələnə bilən ağır qəzalara səbəb ola bilər. Siyəzən rayonunda Beşbarmaq dağında bir qadının qayaya çırpılaraq həyatını itirməsi bu riskləri bir daha gündəmə gətirib.**



Qeyd edək ki, qayaya çırpılaaq dünyasını dəyişən Nuranə Məcidova paraşütlə tək uçuş edib. Solo uçuş edən qadının paraşütü özünə məxsus olub.

Onun paraşütlə uçuş edərkən havada idarəetməni itirdiyi bildirilir. Uçuşun 500 metr hündürlükdən icra edildiyi qeyd olunur. Siyəzənin hüquq-mühafizə orqanlarından bildirilib ki, Nuranə Məcidova Siyəzən rayonunun Zarat kəndi ərazisində yerləşən Beşbarmaq piri adlanan dağın zirvəsindən atlamaq üçün istifadə edilən paraşütlə uçan zaman küləyin istiqamətini düzgün tənzimləməyib və idarəetməni itirərək, qayalıqlara çırpılaraq həyatını itirib.

Baş Prokurorluq da Siyəzəndə 36 yaşlı qadının paraşütlə atlanarkən yıxılaraq ölməsi faktı ilə bağlı açıqlama yayıb. Qurumun Mətbuat xidməti xəbər verib ki, iyulun 7-si Bakı sakini 1989-cu il təvəllüdlü Nuranə Məcidovanın Siyəzən rayonu Zarat kəndində yerləşən "Beşbarmaq" piri adlanan ərazidə dağdan paraşüt vasitəsilə atlanarkən yıxılaraq ölməsi faktı üzrə Siyəzən Rayon Prokurorluğunda araşdırma aparılır. Hadisənin başvermə səbəbi tam, hərtərəfli və obyektiv araşdırılmaqla nəticəsi barədə müvafiq qərarın qəbul edilməsi təmin olunacaq.

Ekspertlər isə qeyd edib ki, Beşbarmaq dağı kimi qaya və meşəlik ərazilərdə paraşütlə uçuşlar zamanı turbulent hava axınları ciddi təhlükə yaradır. Sərt külək və ani istiqamət dəyişmələri paraşütçünün nəzarətini itirməsinə səbəb ola bilər.

### Elmar Nurəliyev: "Təcrübə və sağlamlıq - paraşütçünün həyatı bu iki amildən asılıdır"

**Təhlükəsizlik məsələləri üzrə ekspert Elmar Nurəliyev "Şərq"ə açıqlamasında ekstrim idman növləri içində paraşütdən tullanmanın ən təhlükəlisi sayıldığını vurğulayıb:**

"Paraşütdən tullanan şəxsin, istər həvəskar olsun, istər peşəkar - sağlamlıq vəziyyəti buna imkan verməlidir. Hava durumu, şəxsin təcrübəsi, paraşütün vəziyyəti kimi məqamlar təhlükəsizlikdə rol oynayır. Şəxsin təzyiq, şəkərli diabet, ürək-damar xəstəlikləri kimi bir problemi olmamalıdır. Bundan başqa, sümük, oynaqlarda problemlər yerə düşərkən şəxsin səhhətinə zərər verə bilər. İstənilən halda idmançı, həvəskar şəxs qəzadan yüz faiz sığortalanmayıb. Amma təhlükəsizlik qaydalarına riayət olunarsa və şəxs sağlamlıq vəziyyətini nəzərə alarsa, qəza olma ehtimalı aşağı düşər. Ən əsası isə şəxsin təcrübəsi ona təhlükəli vəziyyətlərdə çıxış yolu tapmağa, vəziyyətdən çıxmağa kömək edə bilər. Bir çox ölkələrdə paraşütdən tullanmaq istəyən şəxs məsuliyyəti öz boynuna aldığı barədə sənəd imzalayır. Yəni paraşütdən tullanma çox riskli idman növüdür.

Beşbarmaqda baş verən faciə bir daha göstərdi ki, ekstremal idman, sadəcə, bir macəra deyil - bu, ciddi hazırlıq, texniki bilik və təhlükəsizlik mədəniyyəti tələb edən fəaliyyət sahəsidir. Təhlükəsizlik tədbirlərinə əməl olunmadıqda, göylərdəki azadlıq, yerə çırpılan bir faciəyə çevrilə bilər".

**Şəymən**

# Ulu Öndər azad medianın inkişafına çox böyük töhfələr verib

## Azərbaycan dövləti bu gün də medianın ayaqda durması üçün əlindən gələni edir

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

### Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi;

**Dünən Heydər Əliyev Mərkəzində Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə "Medianın inkişafında Ümummilli Lider Heydər Əliyevin rolu" adlı konfrans keçirilib. Konfransın açılış mərasimində çıxış edən Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov Ümummilli Lider Heydər Əliyev tərəfindən təməli qoyulan media prinsiplərinin bu gün də dövlətin informasiya siyasətində və medianın fəaliyyətində öz əksini tapdığını və aktuallığını qoruyub saxladığını qeyd edib.**

Azərbaycanda müstəqil mətbuatın formalaşması və sürətli inkişafının təmin edilməsində, bu sahəni tənzimləyən qanunvericilik bazasının təkmilləşdirilərək beynəlxalq standartlara uyğunlaşdırılmasında Ulu Öndərin əvəzsiz rolu barədə danışıb: "Azərbaycanın sürətli inkişafı, genişlənən quruculuq prosesi, dünyada lider mövqeyinin güclənməsi öz növbəsində media gündəmini də zənginləşdirir. Bununla həm də media öz işini ölkənin dinamik inkişaf tempinə uyğun qurmağa sövq edir. Medianın peşəkarlığının artırılması, iqtisadi dayaqlarının gücləndirilməsi Azərbaycan dövlətinin bütün inkişaf mərhələlərində informasiya siyasətinin prioritetlərindəndir. Azərbaycan milli mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamında göstərildiyi kimi Vətən müharibəsində qələbəmizdən az sonra başlanan islahatlar, o cümlədən "Media haqqında" Qanunun qəbul edilməsi media fəaliyyətinin rəqəmsal dövrün çağırışlarına uyğunlaşdırılmasını və ölkəmizin informasiya mühitinin sağlamlaşdırılmasını hədəfləmişdir". Onun sözlərinə görə, vergi azadolmalarının tətbiqi, qəzet və jurnallar üçün əlavə dəyər vergisinin aradan qaldırılması, jurnalistlərə güzəştli ipoteka kreditindən yararlanmaq imkanının verilməsi və digər tədbirlər informasiya resurslarının iqtisadi müstəqilliyinin gücləndirilməsi və jurnalistlərin sosial müdafiəsinin yaxşılaşdırılması istiqamətində görülən işlərin davamlılığını təmin edib: "Bu gün mediamız Azərbaycanın tərəqqisinin və müasir cəmiyyət quruculuğu prosesinin fəal iştirakçısı olaraq, beynəlxalq əlaqələrini və qlobal informasiya məkanında təsir imkanlarını genişləndirib, rəqabət qabiliyyətini artırıb. Ümummilli Lider Heydər Əliyevin nurlu xatirəsi Azərbaycan mətbuatının tarixində, Azərbaycan jurnalistlərinin qəlbində əbədi yaşayacaq, Azərbaycan jurnalistləri bu böyük şəxsiyyəti həmişə qədirbilənliklə anacaqlar".

"Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin sədr müavini Rafiq Həşimovun moderatorluğu ilə baş tutan "Ulu Öndər Heydər Əliyev tərəfindən təməli qoyulan media prinsipləri" mövzusunda panel sessiyada Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova, Azərbaycan Yazıçılar Birliyinin üzvü, Rusiyanın Əməkdar jurnalisti Mixail Qusman, YAP İdarə Heyətinin üzvü və Veteranlar Şurasının sədri Arif Rəhimzadə, Milli Məclisin deputatları - YAP İdarə Heyətinin üzvü Anar İsgəndərov və Əməkdar jurnalist Vüqar Rəhimzadə tərəfindən Ümummilli Liderin media sahəsində həyata keçirdiyi islahatlar, azad və peşəkar medianın formalaşmasında atdığı əhəmiyyətli addımlar barədə geniş müzakirələr aparılıb və həmin prinsiplərin bu gün də dövlətin media siyasətində əsas istiqamət kimi davam etdirildiyi vurğulanıb. Spikerlər Heydər Əliyevin media sahəsində həyata keçirdiyi islahatlar, azad və peşəkar medianın formalaşmasında atdığı əhəmiyyətli addımlar barədə müzakirələr aparıb və həmin prinsiplərin bu gün də dövlətin media siyasətində əsas istiqamət kimi davam etdirildiyi vurğulanıb.




Noyabr ayında çox vacib bir tarixin - böyük Qələbənin beş illiyinin qeyd olunacağını diqqətə çatdıran Mixail Qusman Medianın İnkişafı Agentliyinin rəhbərliyinə müraciət edərək həmin ərəfədə Prezident İlham Əliyevin Azərbaycan mediasının inkişafındakı rolu ilə bağlı konfrans keçirilməsini təklif edərək deyib: "Düşünürəm ki, bu, çox vacib konfrans olacaq. Üstəlik, Prezident İlham Əliyevin 44 günlük Vətən müharibəsi zamanı verdiyi 26 müsahibə peşəkar jurnalist diplomatiyasının ən böyük fantastik nümunəsidir. Bilirəm ki, bu müsahibələrlə bağlı bir kitab nəşr edildi. Lakin mənə elə gəlir ki, Ali Baş Komandanın informasiya sahəsindəki şücaəti ayrıca müzakirə və təhlil olunmalıdır. Belə bir konfrans keçirilsə, xoşbəxt olaram".

**Milli Məclisin deputatı Anar İsgəndərov deyib ki, Azərbaycan mediası ölkə həqiqətlərini dünyaya çatdırmaq istiqamətində mühüm fəaliyyət göstərib:**

"Bu gün ölkəmizdə, sözün əsl mənasında, güclü və nüfuzlu mətbuat mövcuddur. Media ordusu Azərbaycan tarixini və həqiqətlərini dünyaya çatdırmaq üçün mümkün olan bütün vasitələrdən istifadə edib və bu istiqamətdə mühüm fəaliyyət göstərib".

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova bildirib ki, demokratik dünyanın və demokratik düşüncəyə sahib insanların kəşf etdikləri, arxasında dayandıqları və inkişafına töhfə verdikləri ən vacib sahələrdən biri də mətbuatdır. Komitə sədri qeyd edib ki, cəmiyyət inkişaf etdikcə, bu tərəqqi mətbuat sahəsində də özünü göstərir:**

"Mətbuatın yaranması, keçdiyi yol və əldə etdiyi uğurlar barədə danışarkən nəzərə almaq lazımdır ki, əgər müstəqilliyimizin tarixi 100 ildən bir qədər artıqdırsa, mətbuatımızın yaranma tarixi onu da qabaqlayır. Bu baxımdan, müstəqil dövlətlərin qurulması, inkişaf etməsi həm də elə mətbuatın əldə etdiyi nailiyyətdir. Azərbaycan mətbuatı özünün ən yüksək inkişaf dövrünü məhz Ümummilli Lider Heydər Əliyevin hakimiyyəti illərində yaşayıb. Ulu Öndərin bu sahədə ən böyük xidmətlərindən biri senzuranın ləğvi olub. Heydər Əliyev hər zaman mətbuatı azad görmək istəyirdi".

**Deputat Vüqar Rəhimzadə bildirib ki, mətbuat bayramı təkcə jurnalistlərin yox, həm də xalqımızın bayramıdır. O bildirib ki, jurnalistlərin bayramı həm də cəmiyyətin, vətəndaşların bayramıdır:**

"Hazırladığımız materialı bütün insanlar üçün hazırlayırıq. Bu bayram həm də bizim xalqımızın bayramıdır. Ulu Öndərimiz Heydər Əliyev hər sahədə olduğu kimi, mətbuata da böyük önəm verirdi. Mətbuata diqqət, qayğı hər zaman hakimiyyətin proritetlərindən olub. Bu gün peşəkar jurnalistika mövzudur. Qarşıda duran bütün işlərin reallaşmasında jurnalistikanın böyük önəmi var. Zaman göstərdi ki, senzuranın ləğv edilməsi çox vacib bir qərar oldu. Bu qərar bu gün jurnalistikanın inkişafına öz töhfəsini verdi. Bu gün Azərbaycan jurnalistikası peşəkar şəkildə fəaliyyət göstərməyi qarşısına məqsəd kimi qoyub və bu yöndə uğur qazanmağa davam edir. Hazırda Azərbaycan jurnalistikası öz mövqeyini çox mütəşəkkil şəkildə ortaya qoya bilir".

Tədbirin sonunda "Heydər Əliyevin təhsil siyasəti: jurnalist peşəkarlığının artırılmasında təhsilin rolu" mövzusunda dəyirmi masa keçirilib. Medianın İnkişafı Agentliyinin Naxçıvan regional idarəsinin müdiri Vəfa İsgəndərovanın moderatorluğu ilə baş tutan müzakirədə jurnalistika və kommunikasiya sahəsində çalışan akademik nümayəndələr iştirak ediblər. Diqqətə çatdırılıb ki, Ulu Öndərin təhsil strategiyası çərçivəsində jurnalistika sahəsində peşəkar kadr potensialının artırılması, ali təhsil müəssisələrində sözügedən ixtisasın inkişafı və təkmilləşdirilməsi ilə yanaşı, jurnalistikanın elmi əsaslara söykənən inkişafı üçün vacib islahatlar aparılaraq medianın keyfiyyətinin yüksəldilməsi təmin edilib.

**Media eksperti Azər Həsrət "Şərq"ə açıqlamasında bildirib ki, ümumiyyətlə, Azərbaycan mediasının bütün məsələlərini bu cür toplantılarda müzakirə etmək ən doğru qərardır. Ekspert vurğulayıb ki, Azərbaycan mediası ötən 150 il ərzində çox böyük sıçrayışla irəli çıxıb:**

"Xüsusən də, 1991-ci ildə müstəqilliyimizin bərpasından sonra Azərbaycan mediası sadəcə ölkə içində deyil, dünyada da öz yerini tutmağı bacarıb. Bu gün Azərbaycanın xəbərlərini bizə aid bütün bilgiləri dünya birbaşa özümüzdən, ölkə mediasından alır. Vaxt var idi ki, Azərbaycanın xəbərləri Moskva üzərindən gedirdi və orada da "ələkdən keçirilir", xəbərə əl gəzdirilirdi. Hətta məqsədli dezinformasiyaya çevrilirdi. Bu da nəticə etibarı ilə bizim çox çətin durumla üz-üzə qalmağımıza çıxarırdı. Hazırda Azərbaycan mediası azaddır. Bununla bərabər Azərbaycan dövləti də medianın ayaqda durması üçün əlindən gələni edir. İyulun 8-də keçirilən tədbir Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Biz də uzun illər öncə Heydər Əliyevlə təmasda olmuş, onun media siyasətini içəridən bilən adamlar kimi xüsusi vurğulamaq istəyirik ki, Ulu Öndər həqiqətən də Azərbaycan azad mediasının inkişafına çox böyük töhfələr verib. Sevindiricidir ki, bu gün Prezident İlham Əliyev də eyni kursu, eyni uğurla davam etdirir. Azərbaycanda məsuliyyətli azad mətbuatın formalaşmasına dövlətin mümkün yardımlarını əsirgəmir. Eyni zamanda azad jurnalistikanın fəaliyyəti üçün də ölkə içində yetərincə şərait yaradılıb. Belə bir şəraitdə bu cür toplantıların keçirilməsi, məsələlərin müzakirəyə çıxarılması, çatışmazlıqların müzakirəsi çox vacibdir. Düşünürəm ki, Azərbaycan mətbuatının problemlərini hansısa xarici ölkələrin paytaxtlarında deyil, məhz Bakıda, Azərbaycanın ayrı-ayrı bölgələrində dövlət rəsmilərinin də iştirakı ilə müzakirə etmək ən doğru yöntəmdir".

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Vətəndaşlığı olmayanlar döyüş meydanına göndəriləcək

## Xəyal Bəşirov: "Rusiya sərhədləri boyunca canlı qüvvə böhranı yaşayır"

**Rusiya Prezidenti Vladimir Putin yeni bir qanun imzalayaraq vətəndaşlığı olmayan şəxslərin Rusiya Silahlı Qüvvələrində xidmət etməsini qanuni hala gətirib. Bu addım Kreml rəhbərliyinin orduda yaşanan kəskin insan resursu çatışmazlığını ört-basdır etməyə çalışdığını göstərir.**

Ekspertlərin fikrincə, bu qərar həm Rusiya cəmiyyətində səfərbərliyə qarşı artan narazılığı nəzərə almaq məqsədi daşıyır, həm də əsasən Orta Asiyadan gələn, sosial baxımdan həssas miqrant qruplarının daha rahat şəkildə hərbi xidmətə cəlb edilməsini təmin edir. Yeni qanun Rusiya müdafiə sisteminin həm kəmiyyət, həm də keyfiyyət baxımından ciddi böhran içində olduğunu ortaya qoyur. Ən narahatedici məsələ vətəndaşlığı olmayan əmək miqrantlarının, yəni bazarlarda, küçələrdə, tikintilərdə çalışan minlərlə insanın artıq kütləvi şəkildə toplanaraq orduya göndərilməsi ehtimalıdır. Bu proses qismən artıq başlayıb. Məlum olduğu kimi, ötən aylarda Rusiya İstintaq Komitəsinin rəhbəri Aleksandr Bastrıkin açıqlamışdı ki, indiyədək 20.000-dən çox heç bir vətəndaşlığı olmayan miqrant zorla Ukrayna ilə döyüş bölgələrinə aparılıb. İndi isə bu yeni qanun bu praktikanı tam qanuniləşdirir və institusional xarakterə salır. Yəni artıq bazardan, küçədən, tikintidən aparılan miqrantları formal müqavilələrlə "qanuni əsgərə" çevirib cəbhəyə göndərəcəklər.

Prezident Vladimir Putinin imzaladığı yeni qərar ölkəmizdə narahatlıqla qarşılanıb. Bildirilir ki, bu, xüsusilə Rusiyada yaşayan azərbaycanlı əmək miqrantları üçün təhlükə yarada bilər. Hətta onların məcburi formada müharibəyə cəlb ediləcəyi iddia edilir.

**Politoloq Xəqani Cəfərli deyib ki, Rusiya hakimiyyəti ümumi səfərbərliyin cəmiyyətdə sosial partlayışa səbəb olmasından narahatdır:**



"Moskva Ukrayna münaqişəsində işğalçı ordusunu canlı qüvvə ilə təmin etmək üçün müxtəlif üsullara əl atır. Dustaqların və əcnəbilərin orduya cəlb edilməsi, habelə Şimali Koreyadan əsgər "idxalı" Rusiyanın ehtiyaclarını ödəməyə yetmir. Vətəndaşlığı olmayan şəxslərin kütləvi şəkildə prosesdə iştirakını təmin etmək üçün qanunvericilikdə dəyişikliklər edilib. Bu isə Rusiyada yaşayan azərbaycanlı əmək miqrantlarının zorla müharibəyə aparılmasına yol aça bilər".

**Politoloq bildirib ki, Azərbaycan qanunvericiliyinə əsasən, xarici hərbi birləşmələrdə iştirak cinayət hesab olunur:**

"Rəsmi Bakı bu məsələ istiqamətində ciddi addımlar atmalı, maarifləndirmə işləri aparmalı və Rusiya hakimiyyətinə xəbərdarlıq etməlidir. Qanunsuz olaraq Rusiyanın ordusuna qoşulanlara qarşı cinayət işi açılması isə Azərbaycan vətəndaşları üçün ciddi bir çəkindirici tədbir ola bilər".

**Siyasi və Hüquqi Araşdırmalar Mərkəzinin (SHAM) sədri, politoloq Xəyal Bəşirov "Şərq"ə açıqlamasında deyib ki, Rusiya tərəfi çoxdan bu qanunun qəbul edilməsinə çalışır, bununla bağlı müxtəlif müzakirələr aparılırdı. Politoloqun sözlərinə görə, Ukrayna-Rusiya müharibəsi fonunda tərəflərin ən çox əziyyət çəkdiyi məsələ canlı qüvvədir:**

"Rusiyanın əhalisi Ukraynadan dəfələrlə çox, ordusunun böyük olmasına baxmayaraq, ciddi məhrumiyyət yaşayırlar. Belə ki, bu gün Ukrayna üçün yeganə düşmən faktoru Rusiya olsa da, Rusiya eyni vaxtda bir neçə cəbhədə mümkün qarşıdurma ehtimalı ilə üz-üzədir. Keçmiş Sovet İttifaqının hüquqi varisi olan Rusiya imperiya siyasətini davam etdirir və bu səbəbdən də bir sıra münaqişə ocaqlarının mərkəzindədir.

Skandinaviya ölkələri, Finlandiya və İsveçlə qarşılıqlı ittihamlar, bəzən də sərhəddə rotasiyaların şahidi oluruq. Baltikyanı dövlətlərlə Rusiya arasında da hər an müharibəyə çevriləcək qığılcımlar olur. Moldovada Dnestryanı bölgədə də proseslər davam edir. Cənubi Osetiya və Abxaziya cəbhəsini də unutmaq olmaz. Bu istiqamətdə də zaman-zaman gərginlik yaşanır və bu bölgələrdə vəziyyət səngimiş görünsə də, münaqişə ocağı aktivdir. Bir sözlə, Rusiya bütün sərhədləri boyu hərbi təhlükə ilə üz-üzədir.

Qərb qüvvələri Rusiyanın Ermənistandakı hərbi bazasını oradan çıxartmaq niyyətində olduğundan Rusiya oradakı əsgərlərinin sayını da artırmaq niyyətindədir. Digər tərəfdən, Rusiya Çinlə hazırda müttəfiq olsa da, Asiyada liderlik uğrunda rəqabət davam edir. "İki qoçun başı bir qazanda qaynamaz" prinsipi ilə yanaşsaq, Rusiya ilə Çin arasında da uzunmüddətli gərginlik potensialı qalır.

Bütün bunlar onu deməyə əsas verir ki, 17 milyon kvadrat kilometrlik əraziyə sahib olan Rusiyanın bütün sərhədləri boyunca canlı qüvvəyə ehtiyacı var. NATO-ya rəqib olaraq yaradılan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının da demək olar ki, əsas heyəti Rusiya əsgərlərindən ibarətdir".

**X.Bəşirovun sözlərinə görə, Ukrayna cəbhəsində onminlərlə, bəzi mənbələrə görə isə yüzminlərlə əsgər və zabitini itirən Rusiya artıq vətəndaşlarının orduya cəlb edilməsi ilə ehtiyaclarını qarşılayacaq səviyyədə deyil. Məhz bu səbəbdən son vaxtlar Şimali Koreyadan muzdlu döyüşçülərin gətirildiyinə dair məlumatlar da yayılıb:**

"Putin də vətəndaşlığı olmayan şəxslərin Rusiya Silahlı Qüvvələrində xidmət etməsi arzusunu reallaşdırmaq üçün belə bir qanun qəbul edib. Rusiyanın bu qərarında bizim üçün ən narahatedici məsələ vətəndaşlığı olmayan əmək miqrantlarının, yəni bazarlarda, küçələrdə, tikintilərdə çalışan minlərlə insanın artıq kütləvi şəkildə toplanaraq orduya göndərilməsi ehtimalıdır. Yəni bu qərar Rusiyada yaşayan azərbaycanlı əmək miqrantları üçün təhlükə yaradır. Çünki Rusiyanın məsələyə yanaşmada qanunun şərtlərinə riayət edəcəyinin özü belə sual altındadır. Qanun könüllülük prinsipinə əsaslansa da, real praktikada bu insanlar məcburi şəkildə müqavilə imzalamağa vadar edilə bilər. Belə halların sübutu isə faktiki olaraq mümkün olmayacaq. Yəni Rusiya etnik mənsubiyyəti olan insanları məcburi şəkildə cəbhəyə aparıb, onlara zorla müqaviləyə imza atdıracaqlar ki, guya könüllü yazılıb. Bunun əksini isə heç kəs sübut edə bilməyəcək. Bu qanunun qəbulundan sonra Azərbaycandan, Mərkəzi Asiyadan olan insanların məcburi şəkildə Rusiya-Ukrayna döyüşlərinə cəlb edilməsinin şahidi ola bilərik. Bu, istisna deyil. Bu da miqrantların kütləvi şəkildə Rusiyanı tərk etməsinə səbəb olacaq. Yəni etnik mənsubiyyəti olan şəxslər ya öz ölkələrinə qayıtmaq məcburiyyətində qalacaq, ya da Rusiyanın təzyiqi ilə "könüllü" olaraq döyüşlərə qoşulacaqlar ki, bu da dəhşətli nəticələrə səbəb olacaq".

**Şəymən Bayramova**

# Hüseyn Cavid: Milli ruhlu müəllim, yaxud millət müəllimi




**Dövrün tanınmış maarifçisi, pedaqoqu Məhəmməd Tağı Sidqinin ailəsində dünyaya göz açan Məmmədəli Sidqi Hüseyn Cavidlə məktəb yoldaşı olub. İlk təhsilini atasının ”Məktəbi-tərbiyə”sində alan, sonralar Naxçıvan kəndlərində müəllimlik edən Məmmədəlinin ”Mütaliə sevən Əhməd” adlı pedaqoji hekayəsində belə bir hissə yer alır: ”Kitab oxumağı o qədər dost tutardı ki, bir kitabı başlayanda onu qurtarmamış yarımçıq yerə qoymaq istəməzdi.**

Mütaliə etdikcə Əhməd daha artıq həvəslənərdi”. Beləcə, dünya gərdişində, zaman öz işində. Jurnalistika fakültəsinin qiyabi şöbəsində ”Füyuzatçılar” fənnini tədris edərkən Əsgər adlı tələbə mənə Əhmədi, mütaliəyə marağı isə yuxarıdakı hekayəni xatırlatdı. Ona fakültəmizin ilk qadın elmlər doktoru Sevil Həsənovanın dahi mütəfəkkir haqqında ”Hüseyn Cavidin ədəbi-bədii irsi mətbuatda” adlı monoqrafiyası tövsiyə etdiyim kitablar arasında idi. Çox keçmədi ki, yuxarıda adını qeyd etdiyimiz kitab haqqında tələbənin ”Monoqrafiyanın paradiqmatik quruluşu” adlı yazısı mətbuat səhifələrində göründü. Uzun illər sovetlərin ”burjua yazarı”, ”milliyətçi” damğası vurduqları, əsassız şəkildə tənqid, təhqir etdikləri Hüseyn Cavidin böyüklüyünü sıravi universitet tələbəsi o zamanın ”alimlərindən”, ”başbilənlərindən” daha çox anlamağı, monoqrafiyadan təsirlənməyi, təbii ki, bütün bu məqamlar müəllimlərini sevindirməyə, qürurlandırmaya bilməzdi. Duyduğumuz fəxarət hissi tələbəmiz olmağına görə, yaxud müəlliminin kitabına hazırladığı yazıda deyildi. Məsələ onda idi ki, bugünkü gənclik Hüseyn Cavid ucalığını dərindən dərk edərək yazır və yaşayır. Çünki bir zamanlar idi ki, Hüseyn Cavidə qarşı aparılan çirkin təbliğatda nəinki həmkarları, həm də dərs dediyi tələbələri belə iştirak edir, onun repressiyadan öncəki mənəvi sarsıntısına çalışırdılar. Yaxşı ki, Müşkünaz xanımın xatirələri vardır. O, həyat yoldaşı Hüseyn Cavidin dilindən eşitdiyi acı xatirəni qələmə alır:

”...bir tələbəsindən danışdı:

- Mən bu adama beş-altı ay dərs demişəm. Gözlərim bərk ağrayırdı. ”Tatarski” küçəsində yaşayırdıq. İşsiz qalmışdım, vəziyyətim də çox ağır idi. Metropol mehmanxanasının yanından keçirdim. Həmin tələbəmlə rastlaşdıq. Əynində xəz palto var idi. Salam vermədən mənə dedi: - Cavid, nə düşmüsən, boş-boş küçələri gəzirsən? Gedib bir yerdə işə girsənə?

Elə bildim ki, mənə güllə vurdu. Cavab vermədən kədərli halda yoluma davam etdim”. Tarixin kədərli məqamları ilə bərabər, həm də fəxarətli anları da vardır. Bunları oxucuya, geniş mənada xalqa çatdıranlar ziyalı kəslər, qiymətli kitablardır. Zərurətdən irəli gələrək aşağıdakı fikirləri yenidən yada salırıq: ”...qeyd etmək lazımdır ki, Sevil Həsənova 25 ildən çoxdur Hüseyn Cavid yaradıcılığının tədqiqi ilə məşğuldur. O, 2005-ci ildə ”Hüseyn Cavid yaradıcılığının tədrisinin şagirdlərin mənəvi tərbiyəsinə təsiri” mövzusunda namizədlik dissertasiyasını uğurla müdafiə edərək cavidşünas alimlərin sırasına qoşulub” (Q.Dünyaminqızı).

Deyirlər, söz sözü gətirər. Sözümüzün canı yenə kitabdır. Cavidşünas alim Sevil Həsənova nəfis tərtibatlı, zəngin içlikli monoqrafiyadan sonra ”Hüseyn Cavid publisistikası və müasirlik” adlı dərs vəsaiti ilə yenidən böyük auditoriya qarşısındadır. Dahi mütəfəkkirin ölməz ruhunu və adını yaşatmaq naminə üz tutduğu budəfəki ünvan dərsliyin annotasiyasında da qeyd olunduğu kimi müəllim və tələbələrdir: ”...Dərs vəsaitində ilk dəfədir ki, H.Cavidin dövrü mətbuatda, müxtəlif mövzularda çap olunan bədii-publisistik məqalələri (xüsusən də milli ruhu, türkçülüyü, turançılığı, təbliğ edən), resenziyaları, elmi-nəzəri fikirləri, geniş və obyektiv şəkildə tədqiqata cəlb edilib. Dərs vəsaiti əsasən jurnalistika və filologiya fakültələrinin müəllim və tələbələri üçün nəzərdə tutuluğ”. Bu da heç də təsadüfü deyildir. Ən əvvəl ona görə ki, H.Cavid milli ruhlu müəllim idi: millət müəllimi!

”Füyuzat” nəşriyyatının mətbəəsində çap olunan ”Hüseyn Cavid publisistikası və müasirlik” adlı dərs vəsaitinin elmi redaktoru filologiya elmləri doktoru, professor Abid Tahirli, rəyçilər AMEA-nın həqiqi üzvü Teymur Kərimli və filologiya üzrə elmlər doktoru Gülbəniz Babaxanlıdır. Üç fəsildən ibarət kitabın ”Giriş” hissəsində oxuyuruq: ”H.Cavidin publisistikası da, dramaturgiyası da əsasən təlim-tərbiyəyə, soy-kökə, türklüyə bağlıdır. Odur ki, ədibin əsərlərindəki, məqalələrindəki, təlim-tərbiyə məsələləri, türkçülük turançılıq ideyaları obyektiv (marksist-leninçi materialist metodologiyadan uzaq), 20-ci yüzilliyin sonlarında daha geniş öyrənilməyə və təbliğ edilməyə başlanıldı”.

Məlumdur ki, sovet dövründə ədəbi proseslər, gerçəkliklər çox zaman ört-basdır edilir, sovet ideologiyasının şərtləri əsas götürülürdü. Metamarfoza təkcə əsərlər, yaradıcılıq nümunələri deyil, yaradıcı beyinlər və onların sahibləri də məruz qalırdılar. Haqlı olaraq müəllif kitabda həmin məsələyə daha müfəssəl toxunur: ”H.Cavidi sovet yazarına çevirmək üçün bəziləri ”romantizmə realizm mövqeyindən qiymət vermişdilər”. Bu mənada Sevil Həsənovanın ”Hüseyn Cavid publisistikası və müasirlik” adlı dərs vəsaiti gerçəkliyi olduğu kimi təqdim etmək üçün qiymətli elmi-publisistik materialdır. Həmçinin istifadə olunan zəngin ədəbiyyat nümunələri dəyərə dəyər qatır, desək yanılmarıq.

Birmənalı şəkildə qeyd edə bilərik ki, yuxarıda da vurğuladığımız kimi, kitabın aparıcı elmi-ideoloji istiqaməti azərbaycançılıq, turançılıq, millilik və bəşərilik üstündə qurulub. Burada nəinki Azərbaycan

ədəbiyyatının, jurnalistikasının, habelə müstəqillik dövrünün əsas inkişaf meyilləri, estetik idealı, onun tələbəyə gərəkli olacaq aparıcı janrları, poetikası, ideologiyası böyük ədib H.Cavidin yaradıcılığı fonunda ən incə məqamlarına qədər hər sətirdə özünü əks etdirir, hər səhifədə elmi-nəzəri yanaşmalara əsas yer verilir. Kitabın əsas məziyyətlərindən biri də dünyəvi elmi-nəzəri maraqlarla milli fikrin sintezinin aparılmasıdır. Digər tərəfdən də H.Cavidin bədii-publisistik məqalələrinin silsilə şəklində dərc edildiyi ”Açıq söz”, yaxud Azərbaycan Xalq Cümhuriyyəti dövrü daha çox çap olunduğu ”İstiqlal”, habelə ədibin sovet dövrü qərəzli tənqidə məruz qaldığı ”İnqilab və mədəniyyət” jurnalı və ”Kommunist” qəzetinin orijinal nüsxələri aparılan araşdırmanı, ortaya qoyulan sanballı vəsaiti müşayiət edərək oxucuda dolğun təəssürat formalaşdırır.

Sovet dövründə ədəbi və digər sahələr üzrə baş verən proseslər müəyyən mənada çoxlarımıza məlumdur. Gerçəkliklər çox zaman örtbasdır edilir, hakim ideologiyanın şərtləri əsas götürülürdü. Metamarfoza təkcə əsərlər, yaradıcılıq nümunələri deyil, həm də beyinlər və onların sahibləri də məruz qalırdılar.

Haqlı olaraq müəllif Sevil Həsənovanın haqqında bəhs etdiyimiz kitabında bu məsələyə daha müfəssəl şəkildə toxunulur: ”H.Cavidi sovet yazarına çevirmək üçün bəziləri ”romantizmə realizm mövqeyindən qiymət vermişdilər”. Bu mənada Sevil Həsənovanın ”Hüseyn Cavid publisistikası və müasirlik” adlı dərs vəsaiti gerçəkliyi olduğu kimi təqdim etmək üçün qiymətli elmi-publisistik vəsaitdir. İstifadə olunan zəngin ədəbiyyat nümunələri isə dəyərə dəyər qatır.

Sonda vacib məsələni vurğulayaq ki, dövrümüzdə baş verən tarixi proseslərin mövcud reallıqların təkamülündən doğan, müəllifin daxili məntiqi, analitik təhlili və yaradıcılıq meyillərindən yaranan, əsası da azərbaycançılıq məfkurəsi və bəşəri ideyalar əsasında təhlil süzgəcindən keçirilən ”Hüseyn Cavid publisistikası və müasirlik” adlı dərs vəsaitinin ilk səhifəsində Azərbaycan milli mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı yer alır. Həmin Sərəncamda cənab Prezident İlham Əliyevin söylədiyi fikirlər həm də bugünkü zamanda söz, fikir adamları üçün yol xəritəsidir: ””Əkinçi”dən sonra onun ənənələrini davam etdirən çoxsaylı nəşrlər dövrün vətənpərvər ziyalılarını, maarifçilərini eyni məslək ətrafında birləşdirərək, milli oyanış prosesinin aparıcı vasitələrindən biri kimi, ümummilli məqsədlərin gerçəkləşməsində mühüm rol oynayıblar”. Bu gün ümummilli məqsədlər naminə cəmiyyətin, xalqın, millətin birliyi daha həssas, olduqca vacib məsələdir. Və sonda belə bir nəticə də hasil olur ki, bu yolda professor Sevil Həsənovanın ”Hüseyn Cavid publisistikası və müasirlik” adlı dərs vəsaitinin məhz ali təhsilin magistr səviyyəsi üçün nəzərdə tutulması heç də təsadüfdən deyil, tam da dövrümüzün gerçəkliklərindən qaynaqlanaraq oxucu düşüncəsində haqlı suallar doğurur: Bizlər bu gün əbədiyaşar Heydər Əliyevin maarifpərvərlik, vətənsevərlik məktəbinin ibrətamiz dərslərinin səfasını yaşamırıqmı? Bu gün böyük vüsət alan turançılıq, bütöv Azərbaycan, türk dünyasının birliyi Hüseyn Cavid kimi klassiklərimizin yaradıcılıqlarının təzahürü deyildimi? Ümummilli Lider Heydər Əliyevə hələ məktəb vaxtlarında ədəbiyyat fənnini tədris edən Şeyx Məhəmməd Rasizadə həm də Hüseyn Cavidin ilk müəllimi olmamışdımı? Bu mənada hər iki Vətən övladının bu millətə qazandırdığı milli, mənəvi, bəşəri dəyərləri zaman həmişə diri saxlayacaqdır. Tariximizin, şərəfli məqamları və şəxsiyyətləri əbədiyaşayacaq, zaman-zaman dərindən öyrəniləcək, daha da dərk olunacaqdır...

**Qərənfil Dünyaminqızı,**
**Əməkdar jurnalist,**
**Əsgər İsmayılov,**
**BDU Jurnalistika fakültəsinin məzunu**



## Yay xəstəliyi xəbərdarlığı

### Bu əlamətlər varsa dərhal həkimə gedin

**İsti hava, rütubət və gigiyena problemlərinə görə yay aylarında bir çox xəstəlik qapınızı döyə bilər. Əgər sizdə bu əlamətlərdən biri varsa, vaxt itirmədən həkimə müraciət edin.**

Mütəxəssislər yay mövsümündə sağlamlıq risklərinin artması ilə bağlı vətəndaşlara xəbərdarlıq edir. Xüsusilə temperaturun və rütubətin artması ilə bəzi infeksion və xroniki xəstəliklərə daha çox rast gəlinir.

**1. Yüksək hərarət və şiddətli baş ağrısı: Günvurma ola bilər**

Uzun müddət günəş altında qalmaq bədən istiliyinin sürətlə yüksəlməsinə səbəb olur. Əgər sizdə 39°C-dən yuxarı qızdırma, ürəkbulanma, baş ağrısı varsa, dərhal kölgəyə gedin və sağlamlıq şöbəsinə müraciət edin.

**2. İshal və qusma: Qida zəhərlənməsi və ya rotavirus riski**

Yayda xarab qida və ya gigiyenik olmayan su səbəbiylə ən çox rast gələnən problemlərdən biri də qastroenteritdir (mədə qripi). 24 saatdan çox davam edən ishal və maye itkisi təhlükəli ola bilər.

**3. Ani zəiflik və əzələ krampları: İstilik tükənməsi**

Həddindən artıq tərləmə nəticəsində orqanizm mineralları itirir. Elektrolit balansının pozulması baş ağrısı, zəiflik və əzələ kramplarına səbəb olur. Bol su və elektrolit qəbulu vacibdir.

**4. Boğazda şiddətli yanma və öskürək: Kondisionerin səbəb olduğu faringit**

Daim kondisionerə məruz qalanlarda boğaz infeksiyaları və sinüzit tez-tez rast gəlinir. Bu simptomlar 2-3 gündən çox davam edərsə, həkimə müraciət etmək tövsiyə olunur.

**5. Dərinin qızartı və qaşınması: Günəşə qarşı allergiya və ya göbələk infeksiyası**

Hovuzlardan, ortaq duşlardan ötürülən göbələklər və ya günəş allergiyaları qaşınma səpgiləri ilə özünü göstərir. Yayılırsa, həkimə müraciət edin.

**6. Bayılma və artan nəbz: Dehidrasiya və aşağı qan təzyiqinin əlamətləri**

Kifayət qədər su içməmək qan təzyiqinin aşağı düşməsinə və ürək ritminin pisləşməsinə səbəb olur. Xüsusilə yaşlılarda və uşaqlarda ciddi ağırlaşmalar yarana bilər.

**7. Gözlərdə yanma və axıntı: Hovuz suyunun səbəb olduğu göz infeksiyaları**

Xlorlu hovuzlar göz membranını qıcıqlandıra bilər. Konyunktivit (göz iltihabı) tez-tez rast gəlinir. Kontakt linza taxanlar çox diqqətli olmalıdırlar.

**8. Nəfəs darlığı və sinə ağrısı: Astma xəstəliyinə səbəb ola bilər**

Rütubətli hava astma tutmalarını artıra bilər. İdman və ya istirahət zamanı nəfəs darlığı həyatı üçün təhlükə yarada bilər. Mütəxəssislər 65 yaşdan yuxarı insanların, uşaqlar və xroniki xəstəlikləri olanların isti havalarda daha diqqətli olmasını tövsiyə edir. Çoxlu maye qəbul edin, gigiyenaya diqqət edin və simptomlar görünsə dərhal həkimə gedin.

**Elan**

Əhədova Məsməxanım Abdulla qızına verilmiş Yasamal rayonu, Yeni Yasamal-2, ”Jasmin Park” yaşayış kompleksi, ev 5, mənzil 35-in müqaviləsi itdiyi üçün etibarsız sayılır.

”AO MAMLAKAT” ”Məmləkət - elmi istehsalat şirkəti”nə məxsus (VÖEN 1800322111) möhür itdiyi üçün etibarsız sayılır.

# Təhsildə şəffaflıq və sürətə yol aça bilər

## Elektron imtahanlar artıq lüks deyil, zərurətdir

**Dövlət İmtahan Mərkəzinin (DİM) sədri Məleykə Abbaszadənin sözlərinə görə, qarşıdakı beş il ərzində bütün imtahanların elektron formata keçirilməsi planlaşdırılır. Bu, imtahan sistemində innovativ texnologiyaların tətbiqi baxımından ciddi bir irəliləyiş hesab olunur: ”Nəzərdə tuturuq ki, kontingenti 10 mindən çox olmayan imtahanları gələn ildən etibarən tam şəkildə elektron formada keçirək.**

Kontingenti 20 minə çatan imtahanlar isə hələlik kağız daşıyıcılar üzərində təşkil olunacaq. Qarşıdakı beş il ərzində bütün imtahanların elektron formata keçirilməsi nəzərdə tutulur”.

**Təhsil eksperti Ramin Nurəliyev isə ”Şərq”ə açıqlamasında bildirib ki, beş il bu keçid üçün kifayət qədər uzun müddətdir:**

”Əgər DİM istəsə, bu keçidi daha sürətli şəkildə - yaxın 2-3 il ərzində reallaşdıra bilər. Artıq dünya süni intellektə və rəqəmsal texnologiyalara əsaslanan sistemlərə keçid edir. Bu sahədə Azərbaycanda da ilkin nailiyyətlər müşahidə olunur. DİM-in və Elm və Təhsil Nazirliyinin elektron imtahan təcrübəsi artıq var. Hazırda bir sıra imtahanların, o cümlədən, MİQ, sertifikasiya və müəyyən səviyyəli qəbul imtahanları elektron formada keçirilir. Bu təcrübə gələcəkdə daha geniş tətbiq üçün etibarlı əsas yaradır”.



**Ramin Nurəliyev: "İmtahan sistemində insan faktoru obyektivliyə mane olur"**

Bununla belə, R.Nurəliyev qeyd edib ki, tam elektron imtahan sisteminə keçid üçün ciddi texniki və maliyyə hazırlığı zəruridir: ”İnzibati binaların uyğunlaşdırılması, texniki infrastrukturun qurulması, təhlükəsizlik tədbirlərinin təmin edilməsi üçün ciddi maliyyə vəsaiti və resurs tələb olunur. Amma bu sərmayə gələcəkdə həm vaxt, həm də insan resurslarına qənaət baxımından geri dönəcək. Fikrimcə, elektron imtahan sisteminə keçidin əsas üstünlüklərindən biri insan faktorunun aradan qaldırılması və nəticələrin daha obyektiv şəkildə qiymətləndirilməsidir. İmtahanların yoxlanılmasına insan əli dəyməməlidir. İnsan faktoru olduqda, istər-istəməz obyektivlik sual altına düşür.

Əvvəllər qəbul imtahanlarında yalnız test sualları olduğu dövrdə nəticələr 3 gün ərzində elan olunurdu. DİM-in sualları elektron şəkildə qiymətləndirməsi bu prosesi xeyli sürətləndirirdi. Lakin son illər imtahanlara yazılı və açıq tipli sualların daxil edilməsi nəticələrin gecikməsinə səbəb olur. Belə ki, bu sualların yoxlanması insan əməyi tələb etdiyindən həm zaman baxımından uzanır, həm də müəyyən subyektiv hallara yol aça bilir. Uzunmüddətli qəbul prosesi isə abituriyentləri tükəndirir. Hazırda ali təhsil müəssisələrinə qəbul prosesi mart ayında ərizə qəbulundan başlayır və sentyabrda ixtisas seçimi və yerləşdirmə ilə yekunlaşır. Bu isə abituriyentlərin yay aylarını uzunmüddətli stress altında keçirməsinə səbəb olur. Təsəvvür edin ki, bir abituriyent mart ayında müraciət edir, bir neçə mərhələdən keçməli olur, imtahanlar, nəticələrin gözlənilməsi, apelyasiya prosesi, ixtisas seçimi və yerləşdirmə mərhələləri aylarla çəkir. Nəticədə, sentyabrın 15-də universitet həyatına başlayan gənc psixoloji cəhətdən yorğun və motivasiyasız olur”.

**Ekspert hesab edir ki, bütün imtahanlar elektron formada keçirilsə, nəticələr də avtomatik şəkildə, qısa zaman ərzində elan edilə bilər:** ”Bu, həm sistemə etimadı artırar, həm də apelyasiya şikayətlərinin sayını azaldar. Rəqəmsal texnologiyalar və süni intellektin tətbiqi imtahan prosesinin daha şəffaf və ədalətli təşkilini mümkün edir. Bütün bu arqumentlər göstərir ki, Azərbaycanda imtahan sisteminin tam elektronlaşdırılması artıq sadəcə plan yox, zərurətə çevrilməkdədir. İnfrastruktur və texnoloji imkanların gücləndirilməsi, insan resurslarının müasir tələblərə uyğunlaşdırılması ilə bu keçid reallaşdırıla bilər. Bu isə ölkənin təhsil sistemində keyfiyyət və şəffaflığın yeni mərhələsinə yol aça bilər”.

**Şəymən**

Təsisçi: “Şərq Media Qrup” MMC
Baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Nihat Müzəffər, Şəhanə Ziyad, Aynur Babazadə, Fidan Həmişəyeva, Yusif Sultanoğlu

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan Nəşriyyatı” MMC-nin mətbəəsində çap olunur

“Şərq Media Qrup” MMC-yə daxildir:
“Şərq” qəzeti və sherg.az saytı
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi:
Kapital Bank ASC Yasamal filialı
Kod: 200037
VÖEN: 9900003611
M/H: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.: AIIBAZ2XXXX
AZM hesab nömrəsi:
AZ74AIIB400500G9441595487103
VÖEN 1307632991

Tirajı: 1500 Sifariş: 1443



## Robotlar artıq hiss edə bilir

### Yeni nəsil dəri hazırlandı

**Alimlər robotlara toxunuş hissi qazandıran yeni növ robotik dəri inkişaf etdiriblər. Bu, dəri təzyiqi, temperatur dəyişikliyini və hətta dərin kəsiklər kimi zədələri belə hiss edə bilir.**

"Şərq" xəbər verir ki, "Science Robotics" jurnalında yayımlanan araşdırmaya görə, jeləbənzər və elektrik keçirə bilən bu yumşaq material 860 mindən çox siqnal yolunu qəbul edə bilir və müxtəlif toxunma növlərinə reaksiya verir. Dəri müxtəlif səthlərə uyğun formada qəliblənə bilər.

Yeni texnologiya insansı robotlar, süni ətraflar və avtomobillərdə fövqəladə hallar üçün faydalı ola bilər. Alimlər bu materialın ucuz istehsal edilə bilməsi və daha davamlı olması səbəbilə geniş tətbiq potensialına sahib olduğunu bildirirlər. Yeni nəsil dəri, toxunuşa cavab verə bilən və insanlarla daha effektiv qarşılıqlı əlaqə qura bilən robotların inkişafına yol aça bilər.

**Turan**

## Türkiyə kədərə qərq oldu

### Müəllimi şəhidin mesajlarını yaydı




**Ötən gün İraqın şimalında mağarada əməliyyat-axtarış tədbirləri zamanı metan qazından zəhərlənərək şəhid olan 12 hərbçidən biri Özkan Özkanlı ilə bağlı məlumat Türkiyəni kədərə boğub.**

Globalinfo.az xəbər verir ki, şəhidin müəllimi olduğu bildirilən şəxs onunla yazışmalarını paylaşıb.

Məlumata görə, Ö.Özkanlının anası və atası olmayıb, onu və qardaşını nənəsi ilə babası böyüdüb. Özkan hər zaman hərbçi olmaq istəyib. Bu arzusuna çatdıqdan sonra isə müəllimi ilə əlaqə saxlayaraq yetim şagirdlərin təhsil haqqını qarşılamaq istədiyini bildirib. "12 ay mən göndərərəm. 34 min tl maaş alıram, İki ilim var. Mən göndərmək istəyirəm. Müəllim, sizin haqqınızı ödəyə bilmərəm", - mesajlarda qeyd olunub.

Məlumata görə, o, bir neçə şagirdə təhsil üçün təqaüd verib.

## Daha bir gərginlik

### Makron əlini uzatdı, həyat yoldaşı görməzdən gəldi



**Fransa Prezidenti Emmanuel Makron ilə həyat yoldaşı Bricit Makron arasındakı gərginlik bir daha kameralara əks olunub. Makron, İngiltərə səfəri zamanı təyyarədən enən həyat yoldaşına əl uzatsa da, Bricit onun əlini tutmaq əvəzinə pilləkənin tutacağından yapışmağı üstün tutub.**

Prezidentin uzatdığı əl havada qalıb, Makron əlini utancaqlıqla geri çəkib.

Daha sonra avtomobildə görüntülənən cütlük arasında soyuqluq hiss olunub; Bricit Makron telefonuna fokuslanaraq əri ilə ünsiyyət qurmayıb. Bu görüntülər qısa müddətdə sosial mediada geniş yayılıb.

Bu hadisə, Bricit Makronun may ayında Vyetnam səfəri zamanı Makronun üzünü iki əli ilə itələdiyi görüntülərdən sonra yaşanıb. O görüntülər Fransada böyük əks-səda doğurmuş, "Le Parisien" qəzeti "Şillə, yoxsa mübahisə?" başlığını atmışdı. Makron isə bunun sadəcə "zarafat" olduğunu bildirmişdi.

Son hadisə, cütlük Kral Çarlz və Kraliça Kamilla ilə birlikdə ənənəvi at arabası keçid mərasiminə qatılmağa hazırlaşarkən baş verib. Gözlənilməz bu davranışlar evlilikdə gərginlik iddialarını yenidən gündəmə gətirib.

**Turan**

## İtaliyada faciəli ölüm

### Kişi təyyarənin mühərrikində can verdi




**İtaliyanın Milan-Berqamo Beynəlxalq Hava Limanı uçuş-enmə zolağında baş verən qəzaya görə müvəqqəti olaraq bağlanıb. Təyyarənin mühərrikinə düşən naməlum kişi faciəli şəkildə ölüb.**

Bu barədə "Corriere della Sera" qəzeti məlumat yayıb.

İlkin məlumata görə, kişi baqaj qəbulu sahəsindəki qapılardan birini sındırıb. Bundan sonra o, uçuş-enmə zolağına çıxıb və havaya qalxmağa hazırlaşan təyyarənin yoluna düşüb. Nəticədə naməlum şəxs təyyarənin yüksək sürətlə fırlanan mühərrik pərlərinə ilişib və anında ölüb.

Kişinin uçuş-enmə zolağına niyə qaçdığı barədə məlumat verilmir. Bu hadisədən sonra təyyarə idarəetməni itirsə də, pilot vaxtında təyyarəni saxlaya bilib. Təyyarədə olanlardan heç kim xəsarət almayıb. Hava limanı təyyarələrin qəbulunu və buraxılışını müvəqqəti olaraq dayandırıb.







# Baş nazir hiddətləndi

## İti içinə mismar doldurulmuş sosiskayla öldürdülər

**İtaliyanın Taranto şəhərində yeddi ildir axtarış-xilasetmə əməliyyatlarında xidmət edən bu "qəhrəman" axtarış iti, məqsədli şəkildə içi mismarla doldurulmuş sosiskaların yuvasına atılması nəticəsində daxili qanaxma keçirərək ölüb.**

"Şərq" xəbər verir ki, Brunonun məşqçisi Arcangelo Caressa itin dəhşətli şəkildə öldüyünü bildirib və hadisəni törədən şəxsə xəbərdarlıq edib: "Kim olduğunu bilirəm, bunun cəzasını çəkəcəksən".

Caressa feysbuk paylaşımında Bruno üçün belə yazıb: "Sən hər zaman mənim qəhrəmanım olacaqsan. Bütün ömrünü insanlara kömək etmək üçün mübarizə apardın və sənə bunu edən də bir insan oldu".

İtaliya mediasının məlumatına görə, Belçika mənşəli Bruno yeddi ildir Caressa ilə birlikdə çalışırdı və itkin düşmüş uşaqlar, altsheymer xəstələri də daxil olmaqla doqquz nəfəri uğurla xilas etmişdi.

İtaliyanın Baş naziri Corcia Meloni bu hadisədən sonra Brunoya mükafat verdiyi bir şəkli paylaşaraq, "Ürək dağlayan bir xəbər. Alçaq, qorxaq və qəbuledilməz bir hərəkət" açıqlamasını verib.

Narkotik əleyhinə əməliyyatlarda çalışan itləri məşq etdirən və qanunsuz it döyüşlərinə qarşı mübarizə aparan Caressa, İtaliya mediasına açıqlamasında bildirib: "Əsl hədəf Bruno deyildi, mən idim".

Son həftələrdə ölüm təhdidləri aldığını deyən Caressa əlavə edib: "Məni aradan götürmək istəyirlər. Amma heç vaxt təslim olmayacağam. Bu, pul və intiqam uğruna həyata keçirilmiş alçaq bir hücumdur".



Brunonun ölümü İtaliyada böyük rezonansa səbəb olub və geniş şəkildə mediada yer alıb. Sosial mediada çox sayda insan hadisəni törədənlərin yeni qüvvəyə minmiş heyvan hüquqları qanununa əsasən mühakimə olunmasını tələb edir.

Yeni qanuna əsasən, bir heyvanın uzun müddətli əzab və ya işgəncə nəticəsində öldürülməsi dörd ilə qədər həbs və 51 min funt-sterlinqə qədər cərimə ilə cəzalandırıla bilər. Qan itlərinin (bloodhound) iybilmə qabiliyyətlərinin insanlarınkından azı min dəfə güclü olduğu və 300 saat əvvəlki bir qoxunu belə izləyə bildikləri qeyd olunur.

**Turan**



# Sahilə çıxan Lenin

## 32 il əvvəl tapıldı, illərlə gizlində qaldı, nəhayət, sərgiləndi



**1993-cü ilin iyul ayında Düzcenin Akçakoca rayonundakı sahil zolağında maraqlı hadisə baş verib. Taxtadan hazırlanmış büst sahilə "çıxıb".**

Məlum olub ki, bu büst 1917-ci il məşhur Oktyabr inqilabının rəhbəri və SSRİ-nin qurucusu Vladimir Leninə məxsusdur. Heykəlin sahilə haradan, necə gəlib çıxdığı məlum deyildi. Heykəl balıqçılar tərəfindən tapılmışdı. Onunla nə edəcəklərini isə bilmirdilər. Sonrası maraqlıdır. "Şərq" "Milliyet.com.tr"yə istinadən xəbər verir ki, heykəl əvvəlcə yerli bələdiyyənin anbarına aparılıb. 2009-cu ildə yenidən gündəmə gəlib. Bələdiyyə seçkilərində Cümhuriyyət Xalq Partiyasının namizədi Fikrət Albayrak qalib gəlib. Albayrak anbarda büstü sərgiləmək üçün işə başlayacaqlarını açıqlayıb. Rayonda turizm sektoru ilə məşğul olan biznesmenlər də Lenin büstünün turizmə töhfə verəcəyini düşünürdülər. Keçmiş xarici işlər naziri, Ədalət və İnkişaf Partiyasının Düzce millət vəkili Yaşar Yakış da "Heykəlin qoyulmasını uyğun görmürəm. Bu, düzgün olmazdı. Halbuki o, sənət əsəridir və sərgilənə bilər. Muzeyimiz olsaydı, bir küncdə sərgilənə bilərdi" demişdi. Büstün sərgilənməsinə hazırlıq işlərindən biri də anbarda uzun müddət boş qalan heykəlin hərtərəfli təmirdən keçməsi idi. Büstün saxlanılması üçün dülgər Erol Badanözlə müqavilə bağlanıb. Təxminən 2 həftə bərpa işində çalışan Badanöz ona təhvil verilərkən taxtadan düzəldilmiş heykəlin kimə aid olduğunu belə bilməyib. Büstün burnunun tamamilə sınmış olduğunu bildirən Badanöz, "heykəldə müəyyən çatlar var idi. İlk görəndə kim olduğunu başa düşmədim. O zaman Leninin kim olduğunu bilmirdim. İstədiyim kimi bir neçə burun düzəltdim, amma bəyənmədim. Son olaraq Qara dənizli insanların burnuna oxşatdım", deyib. Akçakocada bir dülgər tərəfindən bərpa edilən büst 2009-cu ildə bu inkişaflara baxmayaraq, sərgilənməyib və yenidən bələdiyyənin anbarına aparılıb. Bu müddət ərzində heykəli almaq istəyənlərin olduğu iddia edilsə də, heykəl anbarda qalmağa davam edib. 2009-cu ildəki inkişaflardan sonra uzun müddət unudulan Leninin büstü 2021-ci ildə onunla bağlı çəkilən filmdə yenidən xatırlandı. Rejissor Tufan Taştan, ssenaristləri Taştan və Barış Bıçakçı, Barış Falay, Saygın Soysal kimi aktyorların rol aldığı "Sən, Mən, Lenin" filmi nümayiş olundu. Qaranlıq komediya janrında çəkilən film, turizm gəlirlərini artırmaq istəyən sahil qəsəbəsində Leninin heykəlinin tapılması, heykəlin diqqəti cəlb etməsindən sonra yerli bələdiyyənin heykəli şəhər meydanına qoyması və sonrakı dövrlərdə heykəlin oğurlanmasından sonra qəsəbədə iki polis əməkdaşının işindən bəhs edirdi. Filmin premyerasının Akçakocada keçirilməsi planlaşdırılsa da, o zaman yerli hökumət bunu bəyənməmişdi. Daha sonra Leninin büstü filmdə təsvir olunduğu kimi yoxa çıxdı. 2022-ci ildə dövrün bələdiyyə başqanı Mehmet Okan Yanmaz heykəlin itdiyini, ancaq ən qısa zamanda tapacağını açıqlayıb. 2024-cü il yerli seçkilərdə Albayrak yenidən bələdiyyə sədri seçiləndə məsələ bir daha gündəmə gəlib. Leninin büstü bələdiyyənin anbarında aparılan axtarışlar nəticəsində tapılıb. 32 il sonra aşkar edilən heykəl iyunun 21-də keçirilən tədbirdə sərgilənib. Həmin gün rayondakı amfiteatrda heykəlin maraqlı hekayəsindən qaynaqlanan "Sən, mən Leninəm" filmi də nümayiş olunub.

**Məlahət**

## 3 ay boyunca görməzlikdən gəldi

### Ağrının səbəbi şok etdi



**Avstraliyada yaşayan 39 yaşlı Kristal Maeyke, 2023-cü ilin əvvəlindən etibarən yaşadığı qarın ağrılarını sadə bir qida dözümsüzlüyü kimi qəbul edib və bu şikayətləri görməzlikdən gəlib.**

"Şərq" xəbər verir ki, 3 ay sonra aparılan tibbi müayinələr onun həyatını alt-üst edən acı həqiqəti üzə çıxarıb: Kristala 4-cü mərhələ metastatik yoğun bağırsaq xərçəngi diaqnozu qoyulub. Xərçəng bağırsaqlardan yumurtalıqlara, qaraciyərə və qarın boşluğuna yayılmışdı. Kristal bildirir ki, gündəlik yorğunluğunu analıqla əlaqələndirib, bağırsaq narahatlıqlarını isə İBS (qıcıqlanmış bağırsaq sindromu) kimi düşünərək laqeyd yanaşıb. Gecə tərləmələrini isə yay istiləri ilə əlaqələndirib. Geri baxdıqda, bütün bu simptomların əslində ciddi xəstəliyin xəbərçisi olduğunu anlayıb.

Krystalın hekayəsi 50 yaş altı şəxslərdə bağırsaq xərçənginin artan nisbətinə də işarə edir. Araşdırmalara görə, bu yaş qrupunda xərçəng halları bir çox ölkədə artmaqdadır. ABŞ-də bu artım hər il təxminən 2 faiz, Böyük Britaniyada isə 3,6 faiz təşkil edir. Sağlam həyat tərzi keçirməsinə baxmayaraq, Kristal kimi insanlarda da xərçəngə rast gəlinməsi, mütəxəssisləri ətraf mühit amilləri - plastik, emal olunmuş qidalar və çirklənmə - üzərində düşünməyə vadar edir. Həkimlər qarın ağrısı, şişkinlik, xroniki yorğunluq, gecə tərləmələri və bağırsaq vərdişlərində dəyişiklik kimi əlamətlərin ciddiyə alınmalı olduğunu bildirir. Bağırsaq xərçəngi erkən mərhələdə simptomsuz ola bilər, bu səbəbdən müntəzəm tibbi müayinələr həyati əhəmiyyət daşıyır.

**Turan**

## Gecələr corab geyinib yatırsınızsa...



**Gecə corab geyinmək bir çox insan üçün sadəcə rahatlıq seçimi kimi görünsə də, mütəxəssislər bu vərdişin arxasında psixoloji səbəblərin ola biləcəyinə diqqət çəkirlər.**

Medicina.az xəbər verir ki, son araşdırmalara görə bu, təkcə bədən istiliyinin saxlanması ilə bağlı deyil.

Psixoloqlar deyirlər ki, corabla yatmağa üstünlük verən insanlar, ümumiyyətlə, daxili təhlükəsizlik axtarışında və öz gündəliklərinə sadiq fərdlər olurlar.

Mütəxəssislər bildirirlər ki, yatmazdan əvvəl corab geyinmək fərdlərə təkcə fiziki rahatlıq deyil, həm də ruhi rahatlıq və nəzarət hissi verir.

Bundan əlavə, ayaqları örtmək də təhlükəsizlik reaksiyası ola bilər. Corablar gecə ərzində yaşana biləcək narahatlığa qarşı qoruma təmin edərək yuxu keyfiyyətini artıra bilər.

*Qısacası, gecə corabla yatmaq da şəxsiyyətinizin dərinliklərində olan bəzi psixoloji ehtiyacların səssiz əksi ola bilər.*